Yeddinci çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI VƏ STENOQRAMLARI

Beşinci sessiya
Payız

46-cı cild

31 oktyabr 2025-ci il

Milli Məclisin nəşri
Bakı – 2025

Milli Məclis Aparatının
Redaksiya və nəşr işləri şöbəsində
hazırlanmışdır

# YEDDİNCİ ÇAĞIRIŞ AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN V SESSİYASI İCLASININ

# PROTOKOLU № 47

*Milli Məclisin iclas salonu.*
*31 oktyabr 2025-ci il*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 114 deputatı iştirak etmişdir.**

| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
|---|---|
| İştirak edir | 109 |
| Yetərsay | 83 |

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

1. 8 noyabr – Zəfər Gününün beşinci ildönümü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı.
2. Dövlət xidmətləri haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).
3. “Avtomobil nəqliyyatı haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).
4. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində və “Vəkillər və vəkillik fəaliyyəti

haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

5. “İpoteka haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

6. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).

7. Azərbaycan Respublikasının daxili qoşunları haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

8. “Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

9. “Hərbi xidmətkeçmə haqqında” Əsasnamənin təsdiq edilməsi barədə” və “Hərbi vəzifə və hərbi xidmət haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

10. “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).

11. “Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**Gündəlik haqqında.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Vüqar Bayramov, Zahid Oruc, Ceyhun Məmmədov, Bəhruz Məhərrəmov, Tural Gəncəliyev, Azər Badamov, Hicran Hüseynova, Fazil Mustafa, Elnarə Akimova, Kamran Bayramov

**Təklif:** Gündəlik qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.03 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 111 |

Nəticə: Qəbul edildi

**1. 8 noyabr – Zəfər Gününün beşinci ildönümü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı.**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Vüqar Rəhimzadə

**Təklif:** Qərar qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 11.50 dəq.) |
|---|---|
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 114 |

Nəticə: Qəbul edildi

**2. Dövlət xidmətləri haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Kamal Cəfərov, Razi Nurullayev, Hikmət Məmmədov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
| Lehinə | 100 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**3. "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Badamov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.58 dəq.) |
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 111 |

Nəticə: Qəbul edildi

**4. Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-**

**Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində və "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Bəhruz Məhərrəmov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 11.59 dəq.) |
| Lehinə | 110 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 112 |

Nəticə: Qəbul edildi

**5. "İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Azər Əmiraslanov, Hikmət Məmmədov

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.01 dəq.) |
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 110 |

Nəticə: Qəbul edildi

**6. Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Əli Hüseynli

**Təklif:** Qanun qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.02 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |

Nəticə: Qəbul edildi

**7. Azərbaycan Respublikasının daxili qoşunları haqqında Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Arzu Nağıyev, Qüdrət Həsənquliyev

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.04 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihənin adı, preambulası, 1–5-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.15 dəq.) |
|---|---|
| Lehinə | 109 |

| | |
|---|---|
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 110 |

Nəticə: Qəbul edildi

**Təklif:** 6-cı və 7-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.15 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |

Nəticə: Qəbul edildi

**Təklif:** 8–11-ci maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 109 |

Nəticə: Qəbul edildi

**Təklif:** 12–19-cu maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |

Nəticə: Qəbul edildi

**Təklif:** 20–27-ci maddələr qəbul edilsin

**Səsvermənin nəticələri** (saat 12.16 dəq.)

| | |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |

Nəticə: Qəbul edildi

**Təklif:** 28–30-cu maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.17 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.17 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |

Nəticə: Qəbul edildi

**8. "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Sadiq Qurbanov, Vüqar Bayramov, Zahid Oruc

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

**Səsvermənin nəticələri** (saat 12.18 dəq.)

| | |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə qəbul edilsin

**Səsvermənin nəticələri** (saat 12.30 dəq.)

| | |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

**Səsvermənin nəticələri** (saat 12.30 dəq.)

| | |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**9. "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Arzu Nağıyev

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

**Səsvermənin nəticələri** (saat 12.32 dəq.)

| | |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**10. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Nurlan Həsənov

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.34 dəq.) |
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2-ci maddə qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 103 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |

Nəticə: Qəbul edildi

**11. "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş).**

**Çıxış etmişlər:** Sahibə Qafarova, Sadiq Qurbanov, Asif Əsgərov

**Təklif:** Layihə birinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.46 dəq.) |
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin sədri** **Sahibə Qafarova**

# *MİLLİ MƏCLİSİN İCLASI*

*31 oktyabr 2025-ci il. Saat 11.*

*Azərbaycan Respublikası Milli Məclisinin sədri* ***Sahibə Qafarova*** *sədrlik edir*

**Sədrlik edən.** Hörmətli deputatlar, hörmətli media nümayəndələri, hamınızı xoş gördük. Hörmətli həmkarlar, xahiş edirəm, qeydiyyatdan keçin. Buyurun.

| **Qeydiyyat** | (saat 11.01 dəq.) |
|---|---|
| İştirak edir | 109 |
| Yetərsay | 83 |

Çox sağ olun, yetərsay var, iclasa başlaya bilərik.

Hörmətli həmkarlar, bildiyiniz kimi, oktyabrın 29-da Milli Məclisdə Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyinə həsr edilən beynəlxalq parlament konfransı keçirilmişdir. Tədbirdə 20-dək ölkənin parlament nümayəndə heyətləri, o cümlədən 8 ölkənin parlament sədrləri və sədr müavinləri, eləcə də 7 beynəlxalq təşkilatın təmsilçiləri, ümumən isə 100-dən çox adam iştirak etmişdir.

Konfransda “Konstitusiya müasir dünyada dövlətlərin müstəqilliyinin və suverenliyinin təməli kimi” mövzusunda çıxışlar edilmişdir. Qeyd edim ki, hörmətli həmkarlar, bu konfrans “Konstitusiya və Suverenlik İli” çərçivəsində Milli Məclisin təşkilatçılığı ilə keçirilən 13-cü tədbir idi.

İndi isə, hörmətli həmkarlar, xahiş edirəm, gündəliyə də münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.03 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Gündəlik qəbul edildi.

Gündəmdə olan məsələlərlə bağlı kim çıxış etmək istəyirsə, buyursun, yazılsın. Bilirsiniz ki, həmişə olduğu kimi, 10 nəfər çıxış edə biləcək. Vüqar Bayramov. Buyurun.

**Vüqar Bayramov**. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, gələn həftə şanlı Zəfərimizin 5 ili tamam olacaq. 22 il öncə ilk dəfə Prezident seçilən zaman dövlət başçımızın müəyyənləşdirdiyi hədəflər məhz bu 22 ildə reallaşdı. Azərbaycan ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdi. Zəfərimizə aparan yol, eyni zamanda, iqtisadiyyatımızın inkişafı, eləcə də ordumuzun maddi-texniki bazasının güclənməsi ilə bağlı idi.

Təəssüf ki, hörmətli xanım sədr, Zəfərimizi həzm edə bilməyən daxili marjinal siyasi qruplar son zamanlar Azərbaycanda həyata keçirilən islahatlara kölgə salmağa

çalışırlar və sosial şəbəkədə, xüsusən iqtisadi islahatlarla bağlı çox fərqli və qərəzli fikirlər yaymağa cəhd göstərirlər. Mən müstəqil bir iqtisadçı kimi bu məsələlərə qısa olaraq münasibət bildirmək istərdim.

Azərbaycan iqtisadiyyatı müstəqillik dövründə, bütövlükdə, 3 mərhələdən keçib. Birinci mərhələ məhz AXCP–Müsavat qrupunun iqtidarda olduğu dövrdə yarıtmaz fəaliyyəti nəticəsində Azərbaycan iqtisadiyyatında müşahidə edilən tənəzzüllə bağlı idi. Həmin dövrdə sənaye və kənd təsərrüfatı istehsalı 2,7 dəfə azaldı. Eyni zamanda, artıq Ümummilli Liderimizin hakimiyyətə qayıtması Azərbaycan iqtisadiyyatında ikinci mərhələnin yaşanmasına imkan verdi. 1993–2003-cü illərdə həyata keçirilən islahatlar praktiki olaraq birinci növbədə tənəzzülün aradan qaldırılmasına və iqtisadi inkişafın bərpasına imkan verdi. 1996–2002-ci illərdə ümumi daxili məhsul 71 faiz artdı, kənd təsərrüfatında 40,3 faiz, nəqliyyat və rabitədə 4,2 dəfə artım qeydə alındı. Bu gün toksik müxalifətin iqtidarda olduğu dövrdə həyata keçirdiyi yarıtmaz siyasət nəticəsində toksikləşmiş iqtisadiyyat Ümummilli Liderin rəhbərliyi ilə sağlamlaşdırıldı və Azərbaycan iqtisadiyyatı inkişaf mərhələsinə qədəm qoydu.

Cənab Prezidentin 22 illik hakimiyyəti dövründə, son 22 ildə Azərbaycan iqtisadiyyatı, bütövlükdə, 4 dəfədən çox artıb. İcmal büdcənin gəlirlərində 15 dəfə, xərclərində 18 dəfə artım baş verib. Eyni zamanda, dövlət büdcəsinin gəlirləri 30 dəfə artıb. Azərbaycan azsaylı ölkələrdən biridir ki, onun strateji valyuta ehtiyatları ümumi daxili məhsulun həcmindən daha çoxdur. Göründüyü kimi, müstəqil qiymətləndirmə göstərir ki, Azərbaycan iqtisadiyyatı tənəzzülün qarşısının alınmasına və inkişaf mərhələsinə məhz Ümummilli Liderimiz hakimiyyətə

qayıtdıqdan sonra başlayıb, cənab Prezidentin rəhbərliyi ilə isə güclənib. O baxımdan bu gün toksik müxalifətin yaymağa çalışdığı qərəzli fikirlər, sadəcə, fikirlərdən başqa heç nə deyil. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Zahid Oruc. Buyurun.

**Zahid Oruc.** Hörmətli sədr, qələbə təqvimimizin 5-ci ilində əsrlərcə məruz qaldığımız torpaq və sərvət itkiləri, məcburi köçkünlük və qaçqınlıq dərdi, daimi inamsızlıq və dərin genetik qorxularımız artıq tarixə qovuşur, yeni qalib milli kimlik erası başlanır.

Yaxşı xatırlayırıq, Birinci Qarabağ müharibəsindən sonra "Azərbaycan xalqı döyüşə bilməz" deyən, başqa millətlərə həsəd aparan və natamamlıq kompleksi yaşayan çoxlu insan vardı. Son iki əsrdə biz silahlı düşməndən çox satqınlığa və xəyanətə, səs sürəti ilə yayılan şayiələrə, başıpozuqluğa, içimizdəki inamsızlığa yenilmişik. Tariximizdə ilk dəfə birinci şəxs bütün döyüş meydanlarında öndə getdiyi üçün hamı bir axına çevrildi. Yeraltı sərvətlərimiz, yerüstü qüvvələrimiz və göylərdəki ordumuz, həndəsi dillə desək, üçölçülü fəzada bir amala yönəldi. 2020-ci il oktyabrın 5-də düşmən xəttinin çətin yarıldığı ağır günlərdə Müdafiə Nazirliyinə gələn Ali Baş Komandan məsuliyyətdən gərginlik keçirən generallara deyir: "Sizə güvənirəm və biz qalib gələcəyik!".

Bəli, qalibiyyətin yüzlərcə səbəbi sırasında biri hamısından üstündür: Prezidentin qətiyyəti və inamı. Vətən müharibəsinin 44 müqəddəs günü təkcə silahların döyüşü deyil, həm də liderin millətə birbaşa xitabının salnaməsi oldu. 30 ildir, Konstitusiyada yazılan Ali Baş Komandanlıq statusu İlham Əliyevin Prezident kimi deyil, müharibədə qazandığı ali hərbi tituldur.

1994-cü il sentyabrın 20-də neft savaşının udulması ilə 20 sentyabr Xankəndi Zəfəri bir amalda birləşdiyinə görə Qələbəmizin birinci müəllifi Ulu Öndərdir.

Dünyada mövcud 61 münaqişədə nə qalib var, nə də daimi sülh. Azərbaycan isə ən qısa müddətdə, ən az itki ilə ən böyük nəticə qazanan tək dövlətdir.

Tarix göstərir ki, hər millətin öz "zəfər dövrü" olur. Fransa azadlıq ruhunu Bastiliyanın süqutunda tapdı, alman xalqı Berlin divarını yıxanda bölünən taleləri birləşdirdi, Çanaqqala döyüşü türk xalqının tərsinə gedən taleyini dəyişdirdi. Azərbaycan qurtuluş savaşında tam və qəti qələbə ilə təkcə savaşı qazanmadı, həm də müharibəni bitirməyi bacardı.

Bir əsr əvvəl Topçubaşov Paris Sülh Konfransında Azərbaycanın müstəqilliyi üçün Vilsona təvəqqe edirdi. Bu gün isə ABŞ Prezidenti İlham Əliyevə qalib lider kimi heyranlığını gizlətmir. Yüz ildə millətimizin statusu dəyişib, indi bizi Kürəkçay müqaviləsini imzalamağa deyil, Vaşinqtonda qələbə zirvəsinə dəvət edirlər.

Tariximizdə ilk dəfədir ki, dinc və könüllü şəkildə Xankəndini tərk etməklə erməni məsələsi coğrafiyamızdan kənara çıxıb. İndi "Böyük Ermənistan"ı, "Qafqaz Ermənistanı"nı, "Türkiyə Ermənistanı"nı, "dənizdən-dənizə Ermənistan"ı deyil, "real Ermənistan"ı tanıtdırmaq üçün ermənilər Bakıdan qərar gözləyirlər. Qələbəmizin coğrafiyasını genişləndirən Azərbaycan liderinin nitqini bir gün İrəvandan eşitsəniz, bilin ki, İlham Əliyev Qafqazı I Pyotrdan geri alıb. Ən böyük qayıdış, bax, o olacaq. Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Ceyhun Məmmədov. Buyurun.

**Ceyhun Məmmədov**. Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli deputatlar, hörmətli media nü-

mayəndələri. Bir neçə gün bundan əvvəl Prezident İlham Əliyev növbəti dəfə Cəbrayıl rayonuna səfər etdi. Horovlu kəndinin açılışında iştirak etdi, kənd sakinləri ilə görüşdü, mühüm açıqlamalar verdi. Beləliklə, Qarabağın və Şərqi Zəngəzurun daha bir kəndində həyat öz axarına qayıtdı.

Prezident İlham Əliyev, eyni zamanda, Cəbrayıl rayonunun mərkəzində məscidin təməlqoyma mərasimində iştirak etdi. Bu gün çox sevindiricidir ki, müzəffər Ali Baş Komandanın bilavasitə diqqəti və qayğısı ilə Qarabağda və Şərqi Zəngəzurda tarixi və dini abidələrimiz də bərpa olunur. Dini ibadət yerləri – məscidlər yalnız ibadət yerləri deyil, eyni zamanda, torpaqların hansı xalqa və millətə mənsubluğunu bildirən dini abidələrdir. Bu gün işğaldan azad olunmuş bütün ərazilərimizdə yeni məscidlər inşa olunur, köhnələri bərpa olunur. Bu, Prezident İlham Əliyevin tarixi-dini abidələrimizə, milli kimliyimizə, mənəvi dəyərlərimizə yüksək diqqətinin daha bir göstəricisidir.

Eyni zamanda, Prezident İlham Əliyev şəhər mərkəzində yeni binaların təməlqoyma mərasimində də iştirak etdi. Tezliklə bu binalarda da inşa işləri yekunlaşdırılaraq sakinlərimizin istifadəsinə veriləcək. Tezliklə bu ərazilərdə də həyat öz axarına qayıdacaq.

Prezident İlham Əliyev Cəbrayıla səfəri zamanı Şahvəlli kəndində "Şəms" və "Üfüq" günəş elektrik stansiyalarının təməlqoyma mərasimində də iştirak etdi. Bu mühüm layihələr bölgənin dayanıqlı yaşıl enerji ilə təchiz olunması baxımından xüsusi önəm və əhəmiyyət daşıyır. Bütün bunlar bir daha göstərir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə tezliklə Qarabağ və Şərqi Zəngəzur bölgənin, eləcə də dünyanın ən abad və gözəl bölgələrindən birinə çevriləcək.

Sonda bütün cəbrayıllılar adından cənab Prezidentə təşəkkürümü bildirirəm. Diqqətiniz üçün təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Bəhruz Məhərrəmov. Buyurun.

**Bəhruz Məhərrəmov**. Təşəkkür edirəm. Hörmətli sədr, əziz həmkarlar, düz 22 il əvvəl, 2003-cü ilin bu günü müzəffər lider cənab İlham Əliyev Konstitusiyanın 103-cü maddəsini rəhbər tutaraq ilk dəfə dövlət başçısı kimi dövlətin müstəqilliyini və ərazi bütövlüyünü qoruyacağına, xalqa ləyaqətlə xidmət edəcəyinə and içmiş, Ulu Öndər Heydər Əliyevin siyasətini davam etdirəcəyini vəd vermişdir.

Vəd vermək siyasətçinin fəaliyyət metodudur və dünya təcrübəsində liderlərə verdiyi vədləri yerinə yetirmək, bir qayda olaraq, ya tarixi şərait, ya da vədlərin özünün miqyası baxımından müyəssər olmur. Açıq desək, 2003-cü ilin tarixi şəraitində, Cənubi Qafqaz kimi mürəkkəb coğrafiyada cənab İlham Əliyevin işğala məruz qalmış bir ölkə ilə müqayisədə miqyası hədsiz böyük olan vədlərini yerinə yetirmək ağlasığmaz görünürdü.

2003-cü ilin mənfur oktyabr hadisələrində və sonrakı dövrdə çoxsaylı xarici müdaxilə cəhdləri də göstərilməkdə idi ki, nəinki dövlətin müstəqilliyi və ərazi bütövlüyü, ümumiyyətlə, dövlətin mövcudluğunu davam etdirmək məsələsi sual altında idi. Üstəlik, hakimiyyət daxilində prezidentlik iddiasına düşmüş məmurlar, istər hakimiyyət daxilindən, istərsə də xaricdən ayrı-ayrı güclər tərəfindən maliyyələşdirilən o zamankı siyasi marionetlərin müəyyən güc qazanması ictimai-siyasi sabitliyi təhdid etməkdə idi. Amma cənab İlham Əliyev hələ o zaman nümayiş etdirdi ki, nəyi nə zaman və necə edəcəyini bilir.

22 illik yaxın tarixə nəzər yetirsək, birmənalı şəkildə

deyə bilərik ki, ötən dövrün hər günü cənab İlham Əliyev bizi ümummilli məqsədlərə daha da yaxınlaşdırıb. Ötən 22 ildə cənab İlham Əliyev nəinki dövlət içində dövlət qurmaq istəyən xainlərə və səfirliklərdə bir badə alma şirəsi müqabilində narıncıya boyadılmış radikal klounlara meydan vermədi, əksinə, milli iradəni tarixin heç bir dövründə olmadığı qədər iqtidar sahibi etdi.

Ötən 22 ildə cənab İlham Əliyev Azərbaycan dövlətini ləyaqətlə təmsil edib tarixin heç bir dövründə heç bir liderə müyəssər olmayacaq şəkildə xalqın vahidliyini təcəssüm etdirməyə və dövlətçiliyin varisliyini təmin etməyə nail oldu. Bütün maneələrə baxmayaraq, əzmlə həyata keçirdiyi strategiya nəticəsində siyasi müstəqilliyin möhkəmlənməsi, tam iqtisadi müstəqilliyə nail olunması, ordu və müdafiə sənayesi quruculuğu bizi böyük hərbi-siyasi zəfərlərə apardı. Beşinci ildönümünü qeyd etdiyimiz bu Zəfərlə isə cənab İlham Əliyev mövcudiyyət tariximizdə ilk dəfə hər kəsi, xüsusən onilliklər boyu bizi hesaba almayanları, istehza ilə məğlubiyyətə göz yummağa çağıranları, barəmizdə bizsiz qərar verənləri bizimlə hesablaşmağa vadar etdi, təcavüzkar "böyük Ermənistan" mifini qırmaqla Cənubi Qafqazda sülhü, sabitliyi təhdid edən situasiyanı aradan qaldırmış oldu. Elə Azərbaycan və Ermənistanın öz simalarında bölgəmizin hərb meydanından əməkdaşlıq platformasına transformasiyası istiqamətində real nəticələrə aparan status-kvoya nail oldu. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Tural Gəncəliyev. Buyurun.

**Tural Gəncəliyev**. Hörmətli xanım sədr, hörmətli həmkarlar, bildiyiniz kimi, cari il dahi bəstəkar, böyük musiqişünas alim Üzeyir Hacıbəylinin anadan olmasının

140 ili tamam olur. Üzeyir bəy çoxşaxəli yaradıcılığı ilə Azərbaycan mədəniyyəti tarixində silinməz iz qoymuş dahi şəxsiyyətlərdəndir. O, Azərbaycan mədəniyyətinə beynəlxalq miqyasda böyük şöhrət qazandırmışdır. Üzeyir bəy yalnız Azərbaycan musiqisini zənginləşdirməklə kifayətlənməmiş, həm də milli operamızın yaradılmasına rəhbərlik etmiş, xalq mahnılarımızı qoruyub gələcək nəsillərə çatdırmışdır. Xüsusi olaraq qeyd etmək lazımdır ki, cənab Prezident imzaladığı sərəncamla Üzeyir Hacıbəylinin anadan olmasının 140 illiyinin ölkəmizdə silsilə tədbirlərlə geniş şəkildə qeyd olunmasını təmin etmişdir. Bu qərar dövlətimizin milli mədəniyyətə və böyük sənətkarımızın irsinə göstərdiyi yüksək diqqətin və ehtiramın bariz nümunəsidir.

Üzeyir Hacıbəylinin zəngin yaradıcılıq irsi təkcə musiqi əməyi ilə məhdudlaşmır, həm də elmi araşdırmalar, publisistika və ədəbiyyat üçün geniş mövzu mənbəyidir. Onun həyat fəaliyyətini öyrənmək istiqamətində bir çox tanınmış alimlər, tədqiqatçılar, yazıçılar dəyərli əsərlər qələmə almışlar. Həmin şəxslər sırasında təmsil etdiyim Xankəndi şəhərinin sakini, yazıçı jurnalist Aydın Qarabağlını xüsusi qeyd etmək olar. O, ömrünün 8 ilini Üzeyir Hacıbəylinin həyat və yaradıcılığının dərindən öyrənilməsinə həsr etmiş, zəngin arxiv materiallarına müraciət edərək öz kitabında hər bir detalı qeyd etmişdir. Bu əsər, sadəcə, publisistik mətn deyil, həm də gələcək tədqiqatlar üçün etibarlı mənbə rolunu oynaya biləcək bir nəşrdir. Aydın Qarabağlı uzun illər ərzində Qarabağın mədəni irsinin tədqiqi və gələcək nəsillərə çatdırılması istiqamətində fəaliyyət göstərmişdir. Onun kitabı yalnız Üzeyir Hacıbəylinin xatirəsinə hörmət nümunəsi deyil, eyni zamanda, Azərbaycan musiqi tarixinin öyrənilməsi

baxımından qiymətli bir mənbədir. Bu kimi tədqiqatlar göstərir ki, Üzeyir Hacıbəyli irsi hər dövrdə aktuallığını qoruyur və tədqiqatçılar üçün bitib-tükənməz ilham mənbəyidir.

Üzeyir Hacıbəylinin 140-cı doğum ili yubileyi çərçivəsində keçirilən tədbirlər, konsertlər və elmi müzakirələr Üzeyir Hacıbəylinin irsini daha dərindən öyrənmək, gənc nəsillərə musiqi təhsilində yeni imkanlar yaratmaq və Azərbaycan musiqisinin dünya səhnəsində layiqincə təqdim edilməsinə xidmət edir. Biz onun yaradıcılığını və milli musiqi irsimizə göstərdiyi böyük xidmətləri yüksək qiymətləndirib, bu irsi qoruyub, gələcək nəsillərə ötürmək üçün birgə səylərimizi davam etdirməliyik. Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Azər Badamov. Buyurun.

**Azər Badamov.** Təşəkkür edirəm, hörmətli Sahibə xanım. Hörmətli həmkarlar, keçirdiyimiz qəbullar zamanı seçicilərimizin mütəmadi qaldırdığı bir məsələni diqqətinizə çatdırmaq istəyirəm. Əslində, bu məsələ təkcə mənim təmsil olunduğum dairənin deyil, əksər kənd rayonlarının seçicilərini narahat edən məsələdir. Bu, vətəndaşların mülkiyyətinə verilmiş pay torpaqları ilə bağlıdır. Seçicilər müraciətlərdə pay torpağını bir neçə il dincə qoyandan sonra orada bitmiş kol-kosun təmizlənməsi problemi ilə qarşılaşdıqlarını bildirirlər. Hətta mülkiyyətdəki torpaqda texniki yollarla ağac yetişdirib, sonra isə onu kəsib istifadə etmək də olmaz. Halbuki mülkiyyət sahibi torpağında yetişdirdiyi ağacın böyüməsinə kifayət qədər zəhmət qoyur və onu gələcəkdə öz istəyinə uyğun istifadə etmək məqsədi ilə əkir. Həm də torpaq sahibi mülkiyyətindəki torpağın üzərində yaşıllıq olub-olmamasına baxmayaraq, bütün ərazisinin vergisini

verir, amma ərazidən tam şəkildə istifadə edə bilmir.

Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsinin III hissəsində "Mülkiyyət hüququ mülkiyyətçinin təkbaşına və ya başqaları ilə birlikdə əmlaka sahib olmaq, əmlakdan istifadə etmək və onun barəsində sərəncam vermək hüquqlarından ibarətdir" – yazılmışdır. Amma digər qanunlarda isə vətəndaşın mülkiyyətində olan pay torpağında hətta özünün şəxsi istifadəsi üçün texniki yolla yetişdirdiyi ağacların kəsilməsi və ərazinin kol-kosdan təmizlənməsi cinayət məsuliyyəti yaradır.

Hörmətli həmkarlar, mən hüquqşünas deyiləm. Ona görə də müvafiq komitə tərəfindən məsələyə baxılmasını və məqsədəuyğun hesab olunduğu təqdirdə pay torpağı mülkiyyəti sahiblərini narahat edən bu məsələnin həll edilməsi üçün qanunda müvafiq dəyişikliyin edilməsi ilə bağlı addımların atılmasını təklif edirəm. Məsələ çox vacib olduğuna görə diqqətinizə çatdırdım. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Hicran Hüseynova. Buyurun.

**Hicran Hüseynova.** Sağ olun. Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. Bu günlərdə Qarabağda keçmiş məcburi köçkünkərlə görüş zamanı Prezident İlham Əliyev  qeyd etdi: "Son 5 ilin tarixi Zəfər tarixidir, şanlı tariximizdir". Bu, həqiqətən də, belədir. Biz hər gün  bir uğur, hər gün bir qələbə qazanırıq. Azərbaycan öz ərazi bütövlüyünü təmin edib, suveren hüquqlarını bərpa edib, ölkəmizdə separatçılığın kökü kəsilib. Erməni işğalı nəticəsində dağılmış kənd və şəhərlərimiz yenidən qurulur. Keçmiş məcburi köçkünlərimiz böyük sevinclə və qürurla öz doğma yurdlarına qayıdırlar. Bir daha bu tarixi Zəfəri bizə yaşadan əziz şəhdilərimizi ehtiramla yad edir,

igid qazilərimizə şəfa diləyirik.

Xalqımız Birinci Qarabağ müharibəsindəki məğlubiyyətlə barışmadı və öz doğma torpaqlarımıza qayıtmaq üçün həm Ulu Öndərimiz Heydər Əliyev, həm də dövlət başçısı İlham Əliyev böyük siyasi iradə, qətiyyət göstərdilər. 1993-cü ildən Ümummilli Lider Heydər Əliyev tərəfindən iqtisadi, siyasi, hərbi sahədə başlanan mühüm islahatlar Prezident İlham Əliyev tərəfindən daha da gücləndirildi.

Qeyd etmək lazımdır ki, Heydər Əliyev Fondunun prezidenti, respublikanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən layihələr bu müqəddəs missiyanın həyata keçirilməsində özünəməxsus rol oynamışdır. Beləliklə, Azərbaycan bir dövlət olaraq, bütün gücləri səfərbər edərək öz tarixi vəzifəsini şərəflə yerinə yetirdi.

Spiker hörmətli Sahibə xanım Qafarova başda olmaqla, Azərbaycan parlamenti, bütün deputat həmkarlarım 44 gün ərzində ümumi qələbəmiz üçün fəaliyyət göstərdi, təbliğat işləri apardı, bəyanatlar verdi. Ötən müddət ərzində aparılan siyasət nəticəsində Azərbaycan artıq Ermənistanla sülh yaratma prosesində, demək olar ki, son mərhələyə keçib.

Prezident İlham Əliyev Ulu Öndərin qoyduğu təməl prinsipləri daha da gücləndirərək Azərbaycanın 200 illik işğal tarixinə son qoydu. O, elə bir siyasət aparır ki, gələcək nəsillər üçün həll olunmamış məsələ qalmasın. Regionda yeni reallıq yaradan Prezident İlham Əliyevin qətiyyəti nəticəsində Azərbaycan həm iqtisadi, həm strateji, həm də geosiyasi baxımdan ciddi qəbul olunan bir dövlətdir. Ölkəmiz müstəqil siyasət aparır və öz dövlət və vətəndaş maraqlarını müdafiə edir. Lakin son zamanlar

bəzi qüvvələr Azərbaycan dövlətinə, dövlətçiliyinə, onun rəhbərinə və ailəsinə qarşı böhtan kampaniyaları aparır. Sosial şəbəkələr üzərindən saxta...

**Sədrlik edən.** Mikrofon verin.

**Hicran Hüseynova.** Bilirik ki, ölkəmizə, onun rəhbərliyinə qarşı yalan və şər təbliğatı aparan qüvvələr, onların havadarları öz məqsədlərinə çata bilməyəcəklər. Çünki onların qarşısında bir qarış torpağını da düşmən tapdağında qoymayan müdrik rəhbər, güclü ordu, dəmir yumruq kimi xalq dayanır.

Mən təbriklərə qoşularaq 8 noyabr – Zəfər bayramı münasibəti ilə xalqımızı təbrik edirəm. Bugünkü Azərbaycanın gücü, birliyi, azadlığı və əzmkarlığı heç vaxt məğlub olmayacaq. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Fazil Mustafa. Buyurun.

**Fazil Mustafa.** Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, ölkə Prezidenti cənab İlham Əliyevin təhsilə nə qədər böyük önəm verdiyini izah etmək üçün hər il açılan məktəblərin, təməli qoyulan məktəb müəssisələrinin sayına diqqət etsək, bu, yetərli ola bilər. Amma təhsilimizdə hələ də müəyyən problemlərin qalması hamımızı narahat edir. Hər bir məktəbin əsas siması məktəbin direktorudur, direktor müavinləridir. Elə universitetin də siması onun rektorudur. Rektorun xarakteri, direktorun kimliyi o müəssisənin taleyinə çox önəmli təsir göstərir, orada təhsil prosesinin nə qədər keyfiyyətli olmasını təmin edir.

Bu gün Təhsil Nazirliyinin də etiraf etdiyi kimi, Azərbaycanda 600 məktəbdə direktor vəzifəsi boşdur, yəni 600 məktəbin siması görünməməkdədir. Direktor seçimi üçün də hər dəfə yeni metodologiya kəşf olunur. Kiçik bir ölkəyik. Burada Rusiyada, Amerika Birləşmiş Ştatlarında,

Avropa ölkələrində olduğu kimi çox sayda məktəbimiz yoxdur. Bir direktor seçimi nədir ki, bu qədər testdən, bu qədər mərhələdən keçməlidir. İki yerə bölünür. 500 nəfərədək olan məktəblərdə bir prosedur gedir, oranın məktəb direktoru müavinlər və məktəb müəllimləri arasından müsabiqə yolu ilə seçilir. 500 nəfərdən çox olanda isə üç mərhələli sistem qoyulur. Mürəkkəb bir labirint yaradılır. Layiqli insanların məktəb direktoru seçilməsini təmin etmək heç də mümkün olmur. Bu da məktəblərdə təhsilin səviyyəsini xeyli aşağı salır. Bu, ümummilli bir problem olduğuna görə mən dilə gətirirəm.

Axı, məktəblərdə çox sadə bir mexanizm var. Hər məktəb direktorunun müavinləri var. Xarici ölkələrdə belədir, burada da mərhələlər var, çətinliklə seçilir. Amma müəyyən qayda qoyublar – 10 il stajı olan adam məktəb direktoru seçilə bilər. Finlandiyada, başqa ölkələrdə bu meyar tətbiq olunur. Yəni məktəbdə kollektiv içində rəy sorğusu keçirilir və 10 il stajı olan insanlardan biri seçilir. Yaxud da qısa müddətdə bir kadr bankı yaradılır. 5 il keçib, 10 il keçib, necə olub, məktəb direktoru kadr bankı lazımi səviyyədə yaradılmayıb? Bununla da məktəblər tənəzzülə uğrayır. 1 il, 2 il itirilən təhsil sonradan uşaqların taleyində öz sözünü söyləmiş olur.

Digər tərəfdən, biz yüz milyonlarca vəsait xərcləyib xaricdə tələbə yetişdiririk. Böyük əksəriyyəti qayıdıb gəlir, amma işlə təmin olunmur. Özləri təşəbbüs göstərməyincə, valideynləri ora-bura gedib bir qapı döyməyincə bunlarla maraqlanan yoxdur. Xeyli hissəsi bizə müraciət edir ki, bizim işlə təmin olunmağımıza kömək edin. Yəni bu məsələyə ciddi diqqət edin. Dövlət pul xərcləyib, dövlətin vəsaiti gedib. Prezident çox böyük bir təşəbbüs göstərib, bu adamlar mütəxəssis kimi yetişiblər, onların

işlə təmin olunması ilə bağlı maraqlanmaq lazımdır. Əsasən, bu məsələlərə diqqət yönəltmək vacibdir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Akimova Elnarə. Buyurun.

**Elnarə Akimova.** Təşəkkür edirəm, xanım sədr. Hörmətli həmkarlar, hörmətli media nümayəndələri, biz uzun tarixi bir prosesin sonlandırılmasına doğru yol gedirik və bu istiqamətdə yürüdülən siyasətin alternativi yoxdur.

Atatürk Qurtuluş savaşını zəfərlə başa çatdırandan və Cümhuriyyətin elanından sonra 7 il müxalifətsiz fəaliyyət göstərdi. Yalnız 1930-cu ildə rəhbərliyində azərbaycanlı Əhməd Ağaoğlunun da təmsil olunduğu müxalif Sərbəst Firqə yarandı. Sərbəst Firqə hökumətə müxalifətdə olsa da, cümhuriyyət ideallarına, yəni mövcud iqtidarın yürütdüyü siyasətə sədaqətli olacaqdı, çünki zaman siyasi müxalifət zamanı deyildi, birləşmək, daha güclü olmaq zamanı idi.

İkinci Qarabağ savaşında Zəfərdən sonra Ali Baş Komandan İlham Əliyev Cənubi Qafqazda 300 ildir ki, davam edən və davam etməkdə hələ də israrlı olan siyasi mənzərəni dəyişib. Bu gün dövlət siyasətimizdə Azərbaycanın geosiyasi mənzərəsi müasir gerçəkliklər nəzərə alınmaqla tarixi reallıqlara istinad edən istiqamətə doğru yol gedir. Bunun alternativi varmı? Yoxdur. Bu düşüncəyə qarşı müxalifətdə olmaq mümkün deyil. Onun təftiş edilməsi də xalqın qəbul etməyəcəyi bir haldır. Çünki xalq qazanılmış Zəfərin qlobal mahiyyətini dərindən anlayır. Çünki o bu Zəfəri ən azı 30 il gözlədi və bu 30 ildə məğlubiyyətlə heç bir halda razılaşmadı.

İdeala doğru gedən yollarımızı bağlayan müxtəlif

maneələr, nəhayət ki, ortadan qaldırıldı, ATƏT-in Minsk qrupu var idi, Vaşinqton görüşündə bu qurum buraxıldı. 907-ci düzəliş var idi, 30 ildən sonra bu düzəliş ləğv edildi və sair. Sazişin bağlanması isə ona görə yubanır ki, Ermənistan konstitusiyasında Azərbaycana qarşı ərazi iddiaları var. O iddialar Ermənistan konstitusiyasından çıxarılmalıdır. Azərbaycanın siyasi masada mübahisəsiz qəbul edilən tələbinin miqyası milli iradənin gücü deyilmi?

"Məndən ötdü, qardaşıma dəydi" fəlsəfəsinin bölücü və acı nəticəsini, əsrlər boyu sağalmayan yaralarını biz 200 il əvvəl Azərbaycanın müxtəlif xanlıqlara bölündüyü çağlarda yaşamışıq. İkinci Qarabağ savaşındakı Zəfərimizdən sonra davam edən dövlət siyasəti Zəngəzur dəhlizinin açılmasına doğru istiqamət götürüb və bu proses dünyada sülh layihəsi kimi anlaşılırsa və bu yolda atılacaq addımların daha davamlı olacağına dair verilən vədlər dövlət başçıları tərəfindən Amerikada paraflanırsa, bu, Azərbaycanın apardığı siyasətin böyük milli siyasət olduğundan soraq vermirmi? Bu, təkcə Azərbaycanın Zəngəzur layihəsinə keçidini, Naxçıvana uzanan yollarımızın açılmasını, bir-birindən aralı düşmüş ərazilərimizin qovuşmasını təmin edən xətt deyil, eyni zamanda, türk dünyasını birləşdirən, türk birliyinin reallaşmasını təmin edən yoldur və tarixi taleyimiz bu məqamı siyasi çək-çevir mövzusuna çevirməyi heç kəsə bağışlamaz.

Bu gün erməni siyasətçilərini belə acınacaqlı duruma salan, əsrlər boyu inandıqları "dənizdən dənizə Ermənistan" ideologiyasının boş bir xəyal olduğunu elə onların özünə etiraf etdirən səbəb İlham Əliyevin yürütdüyü ümumazərbaycan siyasətidir. Vaşinqton danışıqlarının nəticəsi olaraq imzalanan...

**Sədrlik edən.** Sağ olun. Fikrinizi, sözünüzü bitirin, buyurun.

**Elnarə Akimova.** Təşəkkür edirəm. Erməni müxalifətinin münasibəti belədir ki, bu sənədlər Azərbaycanla blokadaya son qoymur, əksinə, Ermənistanın suverenliyini məhdudlaşdıraraq Azərbaycan üçün ölkədən keçən koridorun açılmasını təmin edir.

Tarixin elə bir mərhələsini yaşayırıq ki, milli taleyimiz hamını ümumazərbaycan ideologiyasının ətrafında birləşmək üçün səfərbər olmağa çağırır. Müxalif olmaq zamanı deyil, birlik və bütövlük zamanıdır. Azərbaycan nə zamandır ki, bu siyasi məqamın gerçəkləşməsini gözləyirdi. İndi məhz o məqamın müasirləri və prosesin iştirakçılarıyıq. Tarix Azərbaycan dövrünü yaşayır və son yüz illərdə belə bir dövrün analogiyasını göstərmək, sadəcə, mümkün deyil. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Sonuncu çıxış. Kamran Bayramov. Buyurun.

**Kamran Bayramov.** Hörmətli xanım sədr, dəyərli həmkarlar, Azərbaycan Milli Məclisinin nümayəndə heyətinin Avronest Parlament Assambleyasının 12-ci plenar iclasında iştirak etməkdən imtina etməsi son bir neçə ildə ölkəmizə qarşı qərəzli mövqe tutan Avropa Parlamentinin və əlaqəli qurumların sistemli xəttinə cavab olaraq atılmış məntiqi addım idi.

Avropa Parlamenti ilə Şərq Tərəfdaşlığı ölkələri arasında dialoq platforması kimi yaradılan Avronest Parlament Assambleyası əvvəlcə yaxınlaşma və etimad mexanizmi kimi nəzərdə tutulurdu. Lakin zaman keçdikcə bu ideya siyasi təzyiqlə, bərabərlik və qarşılıqlı hörmət prinsiplərindən çox uzaq olan qərəzli qətnamələrlə əvəz olundu.

Son illərdə Avropa Parlamenti dəfələrlə Ermənistanla Azərbaycan arasında münaqişə ilə bağlı faktları təhrif edən qətnamələr qəbul edirdi və bu qətnamələrdə qurum rəsmi Bakını Ermənistana qarşı “təcavüz”də ittiham edirdi və Azərbaycanın beynəlxalq ictimaiyyət tərəfindən tanınan suveren ərazisində hərəkət etməsi faktını sanki unudurdu. Avropa yanaşmasının absurdluğu onun ayrı-seçkiliyində xüsusi özünü göstərir. Avropa Parlamenti “Qarabağ ermənilərinin hüquqları”nı təmtəraqla müzakirə edir, lakin Ermənistandan zorla qovulmuş azərbaycanlıların hüquqlarını tamamilə tanımır. Brüssel hələ də bu məsələ ilə bağlı bir qətnamə belə qəbul etməyib.

Bu təxribatlara baxmayaraq, son aylarda Bakı və Yerevan davamlı sülh yaratmaq istəyini nümayiş etdiriblər və Azərbaycan artıq Ermənistan üçün malların öz ərazisindən tranzitinə qoyulan bütün məhdudiyyətləri aradan qaldırmaqla buna nail olmaq üçün konkret addımlar atıb. Bütün bunlar Bakının mehriban qonşuluğa və regionun sabit təhlükəsizlik arxitekturasına inteqrasiyasına sadiqliyini nümayiş etdirir. Lakin iki ölkə sülhə doğru irəliləyərkən müəyyən Avropa dairələri Cənubi Qafqazı keçmişə qaytarmağa çalışaraq bir daha etimadsızlıq və düşmənçilik ritorikasını alovlandırmağa çalışırlar. Bu, Avropa Parlamentinin oktyabrın 29-da qəbul etdiyi və Ermənistan–Azərbaycan münasibətlərinə həsr olunmuş açıq-aşkar təxribat xarakterli sənəddə də öz əksini tapıb. Problem təkcə qətnamələrin və sənədlərin məzmununda deyil, həm də öz mənəvi üstünlüyünə arxayın olan Avropa qurumlarının düşüncə tərzindədir. Avropa Parlamenti Cənubi Qafqazda insan hüquqları ilə bağlı qərarları asanlıqla qəbul etsə də, Avropada miqrantların hüquqlarının pozulması, islamofobiyanın

artması və ya öz ölkələrində milli azlıqlara qarşı ayrı-seçkiliyin həyata keçirilməsi barədə susmağa üstünlük verir.

Bizim regionumuza gəldikdə isə, qoca qitə, dünyanın istənilən yerində olduğu kimi, burada da ərazi bütövlüyü, daxili işlərə qarışmama və suverenliyə hörmət kimi eyni beynəlxalq prinsiplərin tətbiq olunduğunu unudur. Avropa təsisatları bunları siyasi populizmlə əvəz etməklə yaxınlaşmaq niyyətində olan dövlətləri bir-birindən uzaqlaşdırmağa çalışır. Avropa Parlamenti isə bu yanlış strategiyanın praktik nəticələrini Azərbaycanın Avronest Parlament Assambleyasının sessiyasında iştirak etməkdən imtina etməsi timsalında gördü. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, mən hamıya təşəkkür edirəm. Biz indi gündəliyin məsələlərinə keçirik. Xatırladım ki, bizim gündəliyimizdə 11 məsələ var. Gündəliyin 1-ci məsələsi 8 noyabr – Zəfər Gününün beşinci ildönümü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı ilə bağlıdır.

Hörmətli həmkarlar, bildiyiniz kimi, noyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin 44 günlük Vətən müharibəsində Zəfərinin beşinci ildönümü tamam olur. 8 noyabr Azərbaycanın tarixinə müdrik siyasi rəhbərliyin və uzaqgörən hərbi strategiyanın təntənəsi, xalqımızın yenilməz gücünün və qəhrəmanlığının rəmzi kimi daxil olmuşdur.

Hörmətli deputatlar, möhtərəm cənab Prezidentin sözləri 5 il öncə baş vermiş hadisənin tarixi mahiyyətini ifadə edir. Cənab Prezident demişdir: “Azərbaycan 44 gün

ərzində parlaq qələbə qazanaraq Ermənistanı məğlub etdi, işğala son qoydu. Bu 44 günün hər günü bizim şanlı tariximizdir... Azərbaycan əsgəri, Azərbaycan zabiti bir amalla vuruşurdu ki, bu işğala son qoyulsun, bu haqsızlığa son qoyulsun, ədalət zəfər çalsın, tarixi ədalət zəfər çalsın və buna nail olduq".

Hörmətli həmkarlar, Vətən müharibəsində qazanılmış Zəfərin hərbi və siyasi ölçüsü ilə yanaşı, mənəvi ölçüsü də var və o, milli ruhumuzun dirçəlişini ifadə edir. Bu gün bizə onu da xatırladır ki, dövlətin gücü təkcə iqtisadiyyatda və orduda deyil, həm də bütün ölkə vətəndaşlarının həmrəyliyində və birliyində, vətənin taleyi üçün məsuliyyət hissindədir.

Son illərin hadisələri də göstərir ki, yalnız liderinin ətrafında sıx birləşən, öz torpağında azad yaşamağın nə demək olduğunu bilən xalq haqlarını qorumağa və pozulmuş haqlarını bərpa etməyə qadirdir.

Hörmətli deputatlar, ölkəmizin işğaldan azad edilmiş bölgələri bu gün öz həyatının yeni quruculuq dövrünü yaşayır. Yaşayış məskənləri tikilib bərpa olunduqca keçmiş məcburi köçkünlər öz yurdlarına qayıdırlar. İndiyədək 50 mindən çox insan tarixi torpaqlarında dinc həyata başlamışdır.

Üç gün öncə möhtərəm Prezident İlham Əliyevin Cəbrayıla və Zəngilana səfərini biz hamımız qürurla izlədik. Dövlət başçısının iştirakı ilə bu rayonlarda bir neçə müasir yaşayış kompleksinin təməli qoyuldu, ən yüksək standartlara uyğun gələn yeni kəndlərin açılışı oldu. Möhtərəm Prezident kəndlərə köçən sakinlərə mənzillərin açarlarını təqdim etdi.

Hörmətli deputatlar, dövlət başçısı cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım

Əliyevanın azad edilmiş ərazilərdə aparılan işlərə gündəlik diqqəti və qayğısı Qarabağı və Şərqi Zəngəzuru dirçəliş və yeni həyatın rəmzinə çevirmişdir.

Hörmətli həmkarlar, Ermənistan–Azərbaycan münaqişəsinə son qoyulduqdan sonra iki ölkə arasında münasibətləri normallaşdırmaq üçün sülh danışıqları başlanmışdır. Həm də bu danışıqlar Azərbaycan Respublikasının irəli sürdüyü prinsiplər əsasında aparılmışdır. Avqust ayında Amerika Birləşmiş Ştatlarının paytaxtı Vaşinqton şəhərində əldə olunmuş razılaşmalar, sülh sazişinin paraflanması sülh danışıqlarının yekun mərhələsini təşkil etmişdir. Cənubi Qafqaz regionunda uzunmüddətli sülh, əməkdaşlıq və tərəqqi üçün möhkəm təməl yaradılmışdır. İnamla söyləmək olar ki, ölkəmiz qarşıdakı illərdə sülh və sabitlik şəraitində inkişafını davam etdirərək yeni böyük nailiyyətlər qazanacaqdır.

Hörmətli həmkarlar, icazə verin, Azərbaycana tarixi Zəfəri bəxş etmiş müzəffər Ali Baş Komandana, qəhrəman əsgər və zabitlərimizə minnətdarlığımızı bildirək, onları ürəkdən təbrik edək. *(Alqışlar.)*

Təklif edirəm, Zəfər Günü münasibəti ilə möhtərəm cənab Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubları ünvanlayaq. Azərbaycan xalqının və dövlətinin bu günü və sabahı naminə dəyərli fəaliyyətlərində onlara yeni böyük uğurlar arzulayaq. *(Alqışlar.)*

Çox sağ olun.

Hörmətli deputatlar, təəssüf ki, müharibə itkisiz olmur. Biz də bu müharibədə şəhidlər vermişik. Allah şəhidlərimizə rəhmət eləsin! Biz qazilərimizə möhkəm can sağlığı diləyirik.

Hörmətli həmkarlar, 8 Noyabr – Zəfər Gününün beşinci

ildönümü ilə əlaqədar Milli Məclisin bəyanat layihəsi hazırdır. Onun mətnini oxumaq üçün mən həmkarımız hörmətli Vüqar Rəhimzadəyə söz verirəm. Vüqar müəllim, kürsüyə buyurun.

**Vüqar Rəhimzadə.** "8 Noyabr – Zəfər Gününün beşinci ildönümü ilə əlaqədar Azərbaycan Respublikası Milli Məclisinin Bəyanatı.

2025-ci il noyabrın 8-də Azərbaycan xalqı ərazi bütövlüyünün və dövlət suverenliyinin bərpası uğrunda uzun illər apardığı mübarizənin həlledici mərhələsinə yekun vurmuş Zəfər Gününü böyük milli qürur duyğusu ilə qeyd edəcəkdir. 2020-ci ilin sentyabr–noyabr aylarında 44 günlük Vətən müharibəsində əldə edilən Zəfər milli tariximizin ən şərəfli və taleyüklü hadisələrindən biridir.

Azərbaycan beynəlxalq miqyasda tanınmış ərazisinin bir hissəsinin Ermənistan silahlı qüvvələrinin işğalı altında olduğu 30 ilə yaxın dövrdə beynəlxalq hüquqa sadiq qalaraq torpaqlarını sülh yolu ilə azad etməyə çalışmışdır. Dövlətimizin suverenliyini, ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını birmənalı şəkildə təsdiqləyən və Ermənistan silahlı qüvvələrinin işğal etdikləri Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, digər beynəlxalq təşkilatların qərar və qətnamələri münaqişənin nizama salınması üçün hüquqi zəmin yaratmışdır. Təəssüf ki, beynəlxalq qurumlar qəbul etdikləri qərarları həyata keçirməkdə qətiyyətsizlik göstərmiş və təcavüzkarı öz adı ilə çağırmaqdan boyun qaçırmış, ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə aparılan sülh danışıqlarından işğalın nəticələrini bu və ya digər şəkildə rəsmiləşdirmək, bu mümkün olmadıqda isə vaxt uzatmaq üçün istifadə edilmişdir. İşğal olunmuş

ərazilərdə qanunsuz məskunlaşdırma siyasətinin genişləndirilməsi, danışıqların formatını dəyişdirməyə cəhdlər göstərilməsi, Ermənistanın rəhbər vəzifəli şəxslərinin "yeni ərazilər üçün yeni müharibə" iddialarını səsləndirməsi, digər bəyanatları və hərəkətləri işğalçı dövlətin əsl niyyətlərini üzə çıxarmışdır.

Azərbaycan dövlətinin rəhbərliyi onilliklər boyu bəyan etmişdir ki, Azərbaycan Respublikası öz ərazisinin bir hissəsində suverenliyinin qəsb edilməsinə, torpaqlarının quldurcasına zəbt edilməsinə və qoparılmasına heç zaman razı ola bilməz və bütün imkanlardan istifadə edərək ərazi bütövlüyünün bərpasına nail olacaqdır. 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin növbəti təcavüz aktından sonra Azərbaycan Respublikası BMT-nin Nizamnaməsinin verdiyi özünümüdafiə hüququndan istifadə edərək təcavüzkarı sülhə məcbur etmək, Azərbaycan torpaqlarının işğalına son qoymaq məqsədi ilə əks-hücum əməliyyatına başlamışdır.

Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri dünya hərb tarixinə yeni şanlı səhifələr yazmışlar. İşğalçı qüvvələrə ağır zərbələr endirilmiş, onların çoxlu sayda canlı qüvvəsi və hərbi texnikası məhv edilmişdir. Ölkəmizin işğal altında olan ərazisinin böyük bir hissəsi, o cümlədən Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonları, Hadrut və Suqovuşan qəsəbələri, ümumən, 300-ə yaxın yaşayış məntəqəsi azad edilmişdir. Vətən müharibəsinin əsl şərəfli səhifələrindən biri noyabr ayının 8-də Qarabağın incisi və tacı, Azərbaycan mədəniyyətinin beşiyi olan Şuşanın əsarətdən xilas edildiyi gün olmuşdur.

Azərbaycan Silahlı Qüvvələri qarşısında duruş gətirə bilməyəcəyini, məhvə məhkum olduğunu anlayan Er-

mənistan məğlubiyyətini etiraf etmişdir. 44 günlük Vətən müharibəsi 2020-ci il noyabrın 10-da Ermənistanın kapitulyasiya aktını imzalaması ilə başa çatmışdır. Döyüş meydanında qazanılan Zəfərin siyasi-diplomatik müstəvidə də təsdiq edilməsi Ağdam, Kəlbəcər və Laçın rayonlarının dinc yolla Azərbaycana qaytarılmasını təmin etmişdir.

Ulu Öndər Heydər Əliyevin vəsiyyətinin uğurla yerinə yetirilərək Azərbaycan torpaqlarının işğalına son qoyulması, tarixi ədalətin bərpa olunması xalqımızı uzun illər davam edən məğlubiyyət acısından qurtarmış və onu qalib xalqa çevirmişdir. Bütün dünyaya nümayiş etdirilmişdir ki, Azərbaycan haqsızlıqla barışmayan qüdrətli dövlətdir və bundan sonra heç kəs onunla güc və təzyiq dili ilə danışa bilməz.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uzaqgörən daxili və xarici siyasəti 44 günlük Vətən müharibəsində tarixi Zəfərin həlledici amili olmuşdur. Həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası, iqtisadi müstəqilliyin əldə edilməsinə yönələn düşünülmüş tədbirlər sayəsində Azərbaycan maliyyə dayanıqlılığı və xarici yardım olmadan müharibə aparmaq qabiliyyəti qazanmışdır.

Hərbi quruculuq sahəsində zəruri addımlar atılmışdır. Müdafiə sistemində genişmiqyaslı islahatlar aparılmış, müasir peşəkar ordu yaradılmış, hərbi sənaye gücləndirilmişdir.

Suverenlik və qarşılıqlı hörmət prinsiplərinə əsaslanan xarici siyasətin həyata keçirilməsi Azərbaycanın beynəlxalq nüfuzunu yüksəltmişdir. Bütün vasitələrdən istifadə edilərək Azərbaycan torpaqlarının işğalı haqqında həqiqətlər dünya ictimaiyyətinə çatdırılmışdır.

Xalq, iqtidar və ordu arasında möhkəm birlik yaradılmışdır. Doğma torpaqlarını işğaldan azad etməyə hazır olan gənc nəsil yetişdirilmişdir. Bütün siyasi qüvvələr ərazi bütövlüyünün bərpa edilməsi ideyası ətrafında birləşmişlər. Ölkədə yaradılmış idarəçilik modeli Azərbaycana lazımi məqamda dəqiq və qətiyyətlə hərəkət etmək imkanı vermişdir. Azərbaycançılıq ideallarından güc alan xalqımızın milli birliyi döyüş meydanında düşmənə endirilən "Dəmir Yumruğa" çevrilərək qələbənin mühüm amillərindən biri olmuşdur.

Təəssüf ki, hərbi əməliyyatlar dövründə Ermənistan silahlı qüvvələri beynəlxalq hüquq normalarını və prinsiplərini, o cümlədən 1949-cu il 12 avqust tarixli Cenevrə konvensiyalarını kobudcasına pozaraq dinc əhaliyə qarşı dəhşətli cinayətlər törətmişlər. Cəbhə xəttindən uzaqda yerləşən Gəncə, Bərdə, Tərtər, Mingəçevir, Qəbələ şəhərlərinə, Siyəzən, Xızı rayonlarına, digər yaşayış məntəqələrinə ballistik raketlər, habelə qadağan olunmuş ağ fosforlu və kaset tipli mərmilər ilə edilən hücumlar nəticəsində 100-dən çox dinc sakin, o cümlədən 11 uşaq qətlə yetirilmiş, 450-dən çox insan yaralanmışdır. Bu dövlət terrorizmi aktları müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlərdir.

Qarşı tərəfin qanlı hücumlarına və vəhşilik əməllərinə baxmayaraq, Azərbaycan Ordusu beynəlxalq humanitar hüquq normalarına dönmədən əməl etmiş, düşmənin yalnız silahlı qüvvələrini və hərbi obyektlərini hədəf almış, mülki şəxslərə və yaşayış məntəqələrinə zərər vurulmasına yol verməmişdir.

2023-cü il sentyabrın 19-20-də həyata keçirilən antiterror əməliyyatı nəticəsində isə Ermənistan tərəfindən yaradılmış kriminal xunta rejiminin fəaliyyətinə son

qoyulmuş, Azərbaycanın suverenliyi onun bütün ərazisində bərqərar edilmişdir. Bu möhtəşəm uğur 44 günlük Vətən müharibəsində əldə edilmiş tarixi Zəfərin məntiqi davamı və yekunu olmuşdur. Beləliklə, son iki yüz ilə yaxın dövrdə davakar erməni millətçiliyinin həyata keçirdiyi qəsbkarlıq və etnik təmizləmələr silsiləsinə birdəfəlik son qoyulmuşdur.

Azərbaycan Respublikasının Milli Məclisi vətən naminə canını fəda etmiş şəhidlərin əziz xatirəsinə dərin ehtiramını bildirir, döyüş meydanlarında həyatını ölümcül təhlükələrə ataraq böyük qələbəmizə töhfə vermiş əsgər və zabitlərimizə minnətdarlığını ifadə edir.

Bu gün azad Qarabağ və Şərqi Zəngəzur innovativ və dayanıqlı inkişaf məkanına çevrilmişdir. İşğalçılar tərəfindən yerlə-yeksan edilmiş şəhər və kəndlər bərpa olunur. Hava limanları, yollar, körpülər, tunellər, digər obyektlər inşa edilir, elektrik, su xətləri çəkilir. Bölgədə Azərbaycanın gələcək inkişafının yeni modellərindən biri formalaşır. Məcburi köçkünlər ata-baba yurdlarına qaytarılır.

Təəssüflə qeyd edilməlidir ki, Ermənistan tərəfinin işğal dövründə və müharibədən sonra Azərbaycan ərazilərində basdırdığı yüz minlərcə tank və piyada əleyhinə minalar bərpa və quruculuq işlərinin sürətlə aparılmasına maneçilik törədir. Hərbi əməliyyatların başa çatmasından sonrakı dövrdə 400-dən çox mülki şəxs və hərbçi minaların partlaması nəticəsində həlak olmuş və ya yaralanmışdır.

Bütün bu itkilərə baxmayaraq, məhz Azərbaycan bölgədə sabitlik yaradılması və Ermənistanla münasibətlərin normallaşması üçün 5 baza prinsipini təqdim etmiş, sülh gündəliyinin irəliyə aparılması üçün siyasi iradə və

konstruktiv yanaşma nümayiş etdirmişdir. Sülh sazişinin layihəsi də məhz Azərbaycan tərəfindən tərtib olunmuşdur. Bu ilin avqust ayında Vaşinqtonda Amerika Birləşmiş Ştatları Prezidentinin şahidliyi ilə Azərbaycan Respublikası Prezidentinin və Ermənistan Respublikası Baş nazirinin Birgə Bəyannamə imzalaması və iki ölkə arasında sülh sazişinin paraflanması münaqişə dövrünə son qoymuş və regionumuzda uzunmüddətli sülh və sabitliyin yolunu açmışdır.

Əldə edilmiş razılaşmalara uyğun olaraq, reallaşacaq Zəngəzur dəhlizi qitələri birləşdirən mühüm nəqliyyat bağlantısına çevriləcəkdir. Vaşinqton razılaşmalarının daha bir önəmli yekunu isə ATƏT-in Minsk qrupunun ləğv edilməsi olmuşdur.

Azərbaycan Respublikasının Milli Məclisi İkinci Qarabağ müharibəsində qələbənin tarixi əhəmiyyətini qeyd edərək dövlətimizin müstəqilliyinin, ərazi bütöv-lüyünün və suverenliyinin möhkəmləndirilməsi işinə sadiqliyini bir daha ifadə edir. Milli Məclis Azərbaycan Respublikası Prezidentinin bölgədə sülh və əməkdaşlıq mühiti yaradılmasına yönələn səylərini dəstəklədiyini bildirərək xalqımızı öz liderinin ətrafında daha sıx birləşməyə səsləyir”.

Təşəkkür edirəm. *(Alqışlar.)*

**Sədrlik edən.** Çox sağ olun, Vüqar müəllim.

Təklif var, səsə qoyaq. Hörmətli həmkarlar, mən hesab edirəm, əgər başqa bir fikir yoxdursa, bəyanatı səsə qoyaq. Burada 22 nəfər yazılıb. Mən təklif edirəm ki, bu siyahıya yazılan bizim hörmətli həmkarlarımızın hər biri sosial şəbəkələrdə öz fikirlərini bölüşsünlər. Burada bizim hörmətli jurnalistlərimiz var. Xahiş edirəm, şərait yaradaq, hər biriniz jurnalistlərə müsahibə verin, açıqlamalar verin.

Ən əsası da sosial şəbəkələrdə öz fikirlərinizi bölüşün.

Mən məsələni – bəyanatı səsə qoyuram. Xahiş edirəm, münasibət bildirəsiniz. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.50 dəq.) |
|---|---|
| Lehinə | 113 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 114 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, bəyanat qəbul edildi.

Hörmətli həmkarlar, biz gündəliyin növbəti məsələlərinə keçirik. Gündəliyin növbəti 5 məsələsi üçüncü oxunuşda olan qanun layihələridir. 2-ci məsələ Dövlət xidmətləri haqqında qanun layihəsidir. Layihəyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Bu məsələni bizə komitənin üzvü hörmətli Kamal Cəfərov təqdim edəcək. Buyurun.

**Kamal Cəfərov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox sağ olun, hörmətli xanım sədr. Biz birinci və ikinci oxunuşlarda geniş müzakirə aparmışıq. İkinci oxunuşdan sonra qanun layihəsində bir neçə dəyişiklik var. Onları həmkarlarımın nəzərinə çatdırmaq istəyirəm.

13.9-cu maddədə “vahid giriş sistemi ilə identikləşdirmə” sözlərinin çıxarılması təklif edilir.

Həmçinin 16.4-cü maddədə cümlənin sonunda “müəyyən edilən qaydada” ifadəsində “edilən” sözü “etdiyi” sözü ilə əvəz edilir.

Eyni zamanda, ikinci oxunuş zamanı burada aparılan

müzakirələrdə bir sıra iddialar səsləndirildi. O iddialar qanunvericilik təşəbbüsü subyektinin nümayəndəsinə çatdırılıb və ümumilikdə, həmin iddialar qəbul edilmir, məqsədəmüvafiq hesab edilmir. Ancaq bütövlükdə, "xidmət haqqı" anlayışının tənzimlənməsi ilə bağlı məsələlərlə əlaqədar başqa əlavə müzakirələrin aparılması nəzərdə tutulur.  Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Bununla bağlı 2 nəfər yazılıb. Razi Nurullayev. Əslində, üçüncü oxunuşdur. Buyurun, fikrinizi bildirin.

**Razi Nurullayev.** Çox sağ olun, xanım sədr. Hörmətli deputatlar, yeni qanun dövlət xidmətlərinin daha şəffaf və vətəndaşın mərkəzdə olmasını təmin edəcək. Amma bu hədəflərə çatmaq üçün "dövlət qulluqçusu" anlayışına da yeni baxış lazımdır. Çünki qanunlar mexanizmdir, amma bu mexanizmi hərəkətə gətirən dövlət qulluqçusunun vicdanı və peşəkarlığıdır. Dövlət xidmətləri, sadəcə, sənəd dövriyyəsi deyil, vətəndaşla dövlətin birbaşa təmasıdır. O təmasda vətəndaşı qarşılayan dövlət qulluqçusunun davranışı, dövlətin simasıdır. Buna görə də dövlət qulluğu haqqında  islahatları da paralel düşünmək lazımdır.

Bu gün cəmiyyətimizdə çoxsaylı gənc var ki, dövlət qulluğuna girmək üçün illərcə hazırlaşır, imtahan verir, yüksək bal toplayır, lakin yenə də işə qəbul oluna bilmir. Bu, artıq fərdi deyil, sistemli bir dövlət xidməti problemidir. Dövlət qulluğuna qəbul prosesi formal olaraq ədalətli görünsə də, reallıqda bir çox hallarda imtahan balı ilə təminata çevrilmir. İnsanlar düşünür, əgər yüksək bal yığmaq belə yetərli deyilsə, bəs nə lazımdır? Bu sual təkcə həmin gəncləri deyil, bütövlükdə, cəmiyyəti narahat edir. Əgər imtahan və bal obyektiv meyardırsa, niyə yüzlərcə,

bəzən minlərcə gənc ehtiyat kadr siyahısında illərcə qalır və iş tapa bilmir?

Digər tərəfdən, çox vaxt həmin vəzifələrə tanışlıqla, ya da daxildən yönləndirilən şəxslər qəbul olunurlar. Bu, ədalət prinsipini, dövlətin nüfuzunu və gənclərin inamını ciddi şəkildə sarsıdır. Biz gənclərə deyirik ki, oxuyun, çalışın, imtahan verin, biliklə yüksəlin. Amma sistem onlara fərqli siqnal göndərir. Bacarıq deyil, münasibət vacibdir. Belə olduqda isə dövlət xidməti olan dövlət qulluğu imtahandan yüksək bal toplamış istedadlı gənclər üçün cəlbedici deyil, ümid sındıran bir məkana çevrilib.

Bu problemi həll etmək üçün birinci növbədə imtahandan keçən hər bir namizədin yerləşdirilməsi üçün şəffaf mexanizm olmalıdır. Boş yerlər real və açıq elan olunmalı, müsahibə mərhələsində subyektivlik aradan qaldırılmalıdır. Dövlət qulluğunda işləmək istəyən gənc gərək "tanışım yoxdur" deməsin. O inanmalıdır ki, biliyi və zəhməti onun ən böyük dayağıdır. Bu sahədə sosial ədalət bərpa olunmadıqca nə dövlətə inam, nə də cəmiyyətin gələcəyinə arzu etdiyimiz inam möhkəmlənər. Elə bir iş quraq ki, gənc insan bu ölkədə ədalətin çox gözəl işlədiyinə öz taleyində əmin olsun. Təşəkkür edirəm, xanım sədr.

**Sədrlik edən.** Çox sağ olun. Razi müəllim, dedikləriniz bu qanun layihəsinə aid deyildi, ümumi bir məsələ idi. Ancaq deyirsiniz, belədir, faktlarınız varsa, xahiş edirəm, verin. Deyirsiniz ki, hamısı tanışlıqla qəbul olunur və sair. Mən gözləyəcəyəm.

Hikmət Məmmədov. Buyurun.

**Hikmət Məmmədov.** Hörmətli xanım sədr, qəbul olunan qanun layihələri dövlət xidmətlərinin keyfiyyətini artırmağa və vətəndaşlarımıza daha keyfiyyətli xidmət

göstərməyə xidmət edir. Qanunların təkmilləşdirilməsi vacibdir. Ona görə də mən təqdim olunan qanun layihələrinin hər birinə səs verəcəyəm. Ancaq gözümə dəydi və ümumi işimizin lehinə olacağını düşünərək... Əslində, bu, ikinci oxunuşun tələblərinə uyğundur, bəzi qramatik məsələlər var, onları diqqətinizə çatdırmaq istəyirəm. Mümkündürsə, bunu düzəldək.

"İpoteka haqqında" Qanunun 9-cu maddəsinin 4-cü bəndində qeyd olunur ki, ipotekanın hüquqi qüvvəyə minməsi onun dövlət qeydiyyatı anı ilə müəyyən olunur. An rəsmi zaman ölçüsü deyil, qeyri-müəyyəndir. Biz zaman ölçüsü kimi saat, dəqiqə, saniyə tanıyırıq, amma anın rəsmi zaman ölçüsü olduğunu tanımırıq. Elə burada da qeyd etmək olar ki, qeydiyyata alındığı vaxtda müəyyən olunur. O vaxt da bəllidir, aydın məsələdir ki, nə vaxt imzalanırsa, həmin vaxtdan da bu, qeydiyyata alınmış olur.

14-cü maddədə qeyd olunur ki, hansı şərtlər içərisində 3 gün müddətində...

**Sədrlik edən.** Hikmət müəllim, mən çox üzr istəyirəm, olar, Sizin sözünüzü kəsəm?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Siz "İpoteka haqqında" Qanunla bağlı deyirsiniz. O, 5-ci məsələdir. Biz hələ 2-ci məsələdəyik. 5-ci məsələdə mən birinci Sizə söz verəcəyəm. Olar?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Çox sağ olun.

Hörmətli həmkarlar, daha sözü, ya da sualı olan yoxdur. Mən qanun layihəsini səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.56 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 1 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

İndi isə, hörmətli həmkarlar, biz növbəti məsələyə keçirik. "Avtomobil nəqliyyatı haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün mən komitənin sədr müavini hörmətli Azər Badamova söz verirəm. Azər müəllim, buyurun.

**Azər Badamov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini.*

Təşəkkür edirəm, hörmətli Sahibə xanım. Qanun layihəsinin birinci və ikinci oxunuşları zamanı əlavələr və dəyişikliklər təklif olunmayıb. Mətn olduğu kimi qalır. Komitəmizin rəyi müsbətdir. Hörmətli həmkarlarımızdan dəstəkləməyi xahiş edirik. Səsə qoymağınızı xahiş edirik. Təşəkkür edirəm.

**Sədrlik edən.** Azər müəllim, çox sağ olun.

Hörmətli həmkarlar, biz üçüncü oxunuşdayıq. Bu qanun layihəsi ilə bağlı heç kimin sözü, sualı yoxdur. Mən məsələni səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 11.58 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 2 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

İndi isə növbəti məsələyə keçirik. Mülki Prosessual Məcəllədə və daha 2 məcəllədə, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Qanun layihəsinə Hüquq siyasəti və dövlət quruculuğu komitəsi baxıb. Bəhruz Məhərrəmov, Siz məlumat verəcəksiniz. Komitənin üzvü hörmətli Bəhruz Məhərrəmov. Buyurun.

**Bəhruz Məhərrəmov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Çox sağ olun, hörmətli sədr. Əvvəlki oxunuşlarda geniş məlumat verilib. Mahiyyət üzrə əlavə təkliflər yoxdur. Ona görə də səsə qoyulmasını xahiş edirik. Çox sağ olun.

**Sədrlik edən.** Bəhruz müəllim, çox sağ olun. Hörmətli həmkarlar, mən məsələni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 11.59 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 112 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, indi 5-ci məsələyə keçirik. Bu, "İpoteka haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılmışdır. Azər müəllim,

özünüz məlumat verəcəksiniz. Komitənin sədri hörmətli Azər Əmiraslanov. Buyurun.

**Azər Əmiraslanov,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, qanun layihəsi ilə bağlı həm birinci, həm ikinci oxunuşlarda geniş, ətraflı məlumat verilmişdir. Deputat həmkarlarımız tərəfindən qanun layihəsinə dair hər hansısa rəy, təklif komitəmizə daxil olmayıb. Bunu nəzərə alaraq layihənin üçüncü oxunuşda da qəbul edilməsini məqsədəuyğun hesab edirik. Təşəkkür edirəm.

**Sədrlik edən.** Azər müəllim, sağ olun.

Heç bir təklif olmayıb. Ancaq bu gün təklif olacaq. Ona görə də mən hörmətli Hikmət müəllimə söz verirəm. Hikmət müəllim, buyurun. Sonra təkliflərə də baxarsınız. Buyurun, Hikmət müəllim.

**Hikmət Məmmədov.** Çox sağ olun, hörmətli xanım sədr. İndi də deyəcəyim fikirlər üçüncü oxunuşa uyğun deyildir, əslində, ikinci oxunuşa uyğundur. İstəyirsiniz, mən daxili qaydada Azər müəllimə deyərəm, özümüz razılaşarıq.

**Sədrlik edən.** Baxın, ikiniz də yaxın oturursunuz. Siz verərsiniz, ancaq bu, bir kriminal deyil. İndi üçüncü oxunuşda verirsiniz, özünüz də başa saldınız ki, üçüncü oxunuşa aid deyil. Onda mən səsə qoyuram. Azər müəllim, ancaq sonra bunların hamısına baxarsınız.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Əli müəllim, "kriminal" sözünü mən özüm istifadə elədim.

Üçüncü oxunuşda səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.01 dəq.) |
| --- | --- |
| Lehinə | 109 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi üçüncü oxunuşda qəbul edildi.

Biz növbəti məsələyə keçirik. Bu, Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsidir. Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. Məsələyə dair məlumatı komitənin sədri hörmətli Əli Hüseynli verəcək. Əli müəllim, buyurun.

**Əli Hüseynli**, *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun, hörmətli xanım sədr. Bu məsələ ilə bağlı birinci və ikinci oxunuşlarda hörmətli həmkarım Əminə xanım geniş məlumat vermişdi, təkliflərə də münasibət bildirilmişdi. Məsələnin mahiyyəti Rəqabət Məcəlləsinin qüvvəyə minməsi ilə bağlı cinayət məsuliyyətinin dəqiqləşdirilməsi, sanksiyaların sərtləşdirilməsi ilə bağlıdır.

Qısa bir arayış da vermək istəyirəm ki, minimum əməkhaqqı anlayışı Cinayət Məcəlləsinin müqabilində üçüncü çağırışdan sonra artıq istifadə olunmur, faktiki olaraq 2008-ci ildən sonra bu anlayışdan istifadə olunmur. Bunu nəzərə almağınızı xahiş edirəm. Qanun layihəsinə üçüncü oxunuşda səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun.

Heç kim suala yazılmayıb. Mən qanun layihəsini səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.02 dəq.) |
|---|---|
| Lehinə | 110 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi üçüncü oxunuşda qəbul edildi. Çox sağ olun.

Hörmətli həmkarlar, bizim növbəti 4 məsələmiz ikinci oxunuşda olan qanun layihələridir. Növbəti məsələ Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsində baxılan Azərbaycan Respublikasının daxili qoşunları haqqında qanun layihəsidir. Məsələyə dair məlumat vermək üçün sözü komitənin sədri hörmətli Arzu Nağıyevə verirəm. Buyurun.

**Arzu Nağıyev**, *Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri.*

Təşəkkür edirəm. Hörmətli xanım sədr, hörmətli həmkarlar, media nümayəndələri. Təqdim olunan Azərbaycan Respublikasının daxili qoşunları haqqında Azərbaycan Respublikası qanununun layihəsi Milli Məclisin plenar iclasında birinci oxunuşda müzakirə edilmişdir. Hörmətli həmkarlarım Siyavuş Novruzov, Zahid Oruc, Bəhruz Məhərrəmov, Əli Hüseynli layihəyə müsbət rəylər bildirmişlər və hər birinə, bütün həmkarlara təşəkkürümü bildirirəm.

Qanunvericilik təşəbbüsü ilə çıxış edən subyektin Qanunun 15.2-ci maddəsinə dəyişiklik edilməsi təklifi də daxil olmaqla Milli Məclis tərəfindən layihə birinci oxunuşdan qəbul edilmişdir. Birinci oxunuşdan sonra layihə

komitəmizdə ikinci oxunuş üçün müzakirə olunub və yekdilliklə plenar iclasa tövsiyə edilmişdir. Səs verməyinizi xahiş edirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Hörmətli həmkarlar, ikinci oxunuşdur, bilirsiniz, əsas kimi qəbul etməliyik. İndi xahiş edirəm, qanun layihəsinə əsas kimi münasibət bildirin, buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.04 dəq.) |
|---|---|
| Lehinə | 111 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 111 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi.

Mən gördüm, Qüdrət müəllim yazılıb. Qüdrət Həsənquliyev. Buyurun.

**Qüdrət Həsənquliyev**. Çox sağ olun. Hörmətli sədr, hörmətli həmkarlar, media nümayəndələri. İkinci oxunuşun tələblərinə uyğun olaraq, müzakirə olunan qanun layihəsi ilə bağlı bir neçə təklifim var. Qarşıdan Zəfər Günü gəlir. Hər birinizi, o cümlədən Azərbaycan Respublikasının Silahlı Qüvvələrini və silahlı qüvvələrin tərkibi olan bizim daxili qoşunların əsgər və zabitlərini, Daxili İşlər Nazirliyinin əməkdaşlarını da bu qələbə münasibəti ilə təbrik edirəm. Bu qələbənin əldə olunmasında onların da xüsusi rolu olub və onların fəaliyyətinə verilən qiymət kimi... Biz bilirik ki, ölkədə hərbi vəziyyət elan olunandan dərhal sonra respublika üzrə daxili işlər naziri komendant təyin olundu və

qələbədən sonra isə daxili işlər naziri Vilayət Eyvazov cənab Prezident tərəfindən Azərbaycan Respublikasının ikinci yüksək təltifi olan "Zəfər" ordeni ilə təltif edildi. Bu, həm də daxili qoşunlara verilən qiymət idi. Onların fəaliyyətinin, onların xidmətinin əvəzi idi.

Hörmətli həmkarlar, mən qanun layihəsinin 8.14-cü maddəsi ilə bağlı təklif vermək istəyirəm. Burada qeyd olunur ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, daxili qoşunların silah, xüsusi vasitələr, döyüş texnikası və xüsusi texnika ilə təmin edilməsi üçün daxili qoşunların komandanı müqavilələr bağlayır. Bütün inkişaf etmiş ölkələrdə, qanunun aliliyinin təmin olunduğu, hakimiyyət bölgüsünün olduğu ölkələrdə silahlı qüvvələrə nəzarəti, həm də kənar nəzarəti Milli Məclis, yəni qanunvericilik orqanı həyata keçirir. Ona görə də bura əlavə olunsun ki, həmin müqavilələr Milli Məclisin müvafiq komitələri tərəfindən təsdiq olunur. Bu, birbaşa nəzarətin təmin olunması üçün son dərəcə önəmlidir.

Toxunmaq istədiyim digər mühüm məsələ isə daxili qoşunların şəxsi heyəti ilə bağlıdır. Bu barədə mən əvvəllər də məlumat vermişəm. Bu da ondan ibarətdir ki, həm daxili qoşunların akademiyasında təhsil alan kursantlarla, həm də zabitlərlə işə qəbul zamanı əmək müqaviləsi bağlanmalıdır. Yəni həbi xidmətkeçmə haqqında bir müqavilə imzalanmalıdır. Müqavilənin nümunəvi forması bu qanuna əlavə olunmalıdır. Orada onların hüquq və vəzifələri dəqiq göstərilməlidir. Əlbəttə, deyilə bilər ki, "Hərbi qulluqçuların statusu haqqında" Qanun var və həmin qanunda da bütün hərbi qulluqçuların, o cümlədən daxili qoşunların əsgər və zabitlərinin statusu müəyyən olunub. Amma mən qeyd etmək

istəyirəm ki, çox təəssüf, bu qanuna əməl olunmur. 71 nəfər daxili qoşunlarda xidmət etmiş və hazırda ehtiyatda olan zabitlər mənə müraciət ediblər. Hamısı Milli Məclisin vasitəsi ilə daxil olub. Onlar hamısı xahiş edirlər ki, Milli Məclis qanunun icrasının təmin olunmasına kömək etsin, onlara mənzillər verilmir.

Keçən dəfə hörmətli Əli müəllim qeyd etdi, daha doğrusu, Prezidentin fərmanına istinad etdi. Amma Prezidentin fərmanında həm sərhəd qoşunlarının, həm də daxili qoşunların hərbi qulluqçularına ev verilməmsinə dair hər hansı bir müddəa yoxdur. Hesab edirəm, bu məsələ öz həllini mütləq tapmalıdır. Bu, "Hərbi qulluqçuların statusu haqqında" Qanunun 12-ci maddəsinin 7-ci bəndinin tələbidir. Hesab edirəm ki, bu məsələdə həmin müqavilədə öz əksini tapmalıdır.

Toxunmaq istədiyim növbəti məsələ. Hörmətli sədr, bu, 14-cü maddə ilə bağlıdır. Daxili qoşunlar öz vəzifələrinin icrasına hansı hallarda cəlb oluna bilərlər. Burada qeyd olunur ki, daxili qoşunlar aşağıdakı vəzifələri həyata keçirirlər. Amma mən təklif edirəm, 14.1-ci maddə belə adlandırılsın: Daxili qoşunlar ölkədə fövqəladə və hərbi vəziyyət elan olunarkən aşağıdakı vəziyyəti həyata keçirirlər. Ona görə ki, bizim Konstitusiyanın 109-cu maddəsinin 28-ci bəndinə görə də, Prezident silahlı qüvvələrdən təyinatı ilə bağlı olmayan vəzifələrin icrasına razılıq verilməsi üçün Azərbaycan Respublikasının Milli Məclisinə təqdimat verir. Daxili qoşunlar da silahlı qüvvələrin tərkib hissəsidir. Bizdə də o hallarda, daxili qoşunlar qeyd olunan vəzifələrin icrasına cəlb olunur, həmin vəzifələr ölkədə fövqəladə vəziyyət elan olunduqda nəzərdə tutulub. Yəni buna görə də, tutaq ki, ölkədə dövlət təsisatlarının fəaliyyəti üçün bir təhlükə varsa, yaxud

qiyam, dövlət çevrilişi cəhdi, vətəndaşların hüquq və təhlükəsizliyinin qorunması ilə bağlı problemlər, yaxud kütləvi ixtişaşlar varsa, bu halda Prezident tərəfindən fövqəladə vəziyyət elan olunmalı və bundan sonra daxili qoşunlar bu vəzifələrin icrasına cəlb olunmalıdırlar.

Əvvəla, bizdə ölkədə sabitlik var. İkincisi, Daxili İşlər Nazirliyinin xüsusi təyinatlı dəstələri var – çevik polis alayı. Onlar öz vəzifələrini layiqincə yerinə yetirirlər. Hesab edirəm ki, daxili qoşunlardan ölkə daxilində yalnız bu iki halda istifadə olunmasına icazə verilməlidir. Ona görə ki, daxili qoşunlar da silahlı qüvvələrin tərkib hissəsidir və hərbi birləşmələrdir. Hərbi birləşmələr də yalnız o halda istifadə oluna bilər ki, ölkədə ya hərbi vəziyyət, ya da fövqəladə vəziyyət olsun.

Toxunmaq istədiyim sonuncu bir məsələ də bundan ibarətdir ki, – hörmətli sədr, biz "Silahlı qüvvələr haqqında" Qanun qəbul edəndə də mən bu məsələyə toxunmuşdum, – bizdə silahlı qüvvələrin fəaliyyətinə parlament nəzarəti yoxdur. Dünyanın hər yerində silahlı qüvvələrin fəaliyyətinə nəzarət mümkündür. Baxın, 29-cu maddədə qeyd olunur ki, daxili qoşunların fəaliyyətinə ümumi nəzarəti Azərbaycan Respublikası Silahlı Qüvvələrinin baş komandanı həyata keçirir. Daxili qoşunların fəaliyyətinə idarədaxili nəzarəti, yəni burada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın, qurumun rəhbəri və daxili qoşunların komandanlığı həyata keçirir. Amma heç bir kənar nəzarət yoxdur. Mən hesab edirəm, buna əlavə olunmalıdır ki, daxili qoşunların fəaliyyətinə kənar nəzarəti Milli Məclisin müvafiq komitəsi həyata keçirdir. Yəni mütləq əlində silah olan şəxslərin üzərində mülki nəzarət olmalıdır. Belə olmadığı halda, mən hesab edirəm ki, orada baş verənləri tez aşkar edib üzə

çıxartmaq, nöqsanları aradan qaldırmaq mümkün olmaz. Bu, həm dövlətin təhlükəsizliyi üçün, həm də dediyim kimi, bütün digər baş verə biləcək qanunsuzluqların qarşısının alınması üçün də lazımdır.

Diqqətinizə görə təşəkkür edirəm, sağ olun.

**Sədrlik edən.** Sağ olun, Qüdrət müəllim. Axırıncı məsələ ilə bağlı. Komitə bunu, nəzarəti hansı formada həyata keçirə bilər?

**Qüdrət Həsənquliyev.** Komitə, baxın, mən bir nümunə göstərim.

**Sədrlik edən.** Daxili qoşunlara nəzarəti Milli Məclisin komitəsi hansı formada göstərə bilər?

**Qüdrət Həsənquliyev**. Əlbəttə, çox maraqlı və doğru sualdır, hörmətli sədr. Mən Amerika Birləşmiş Ştatlarından bir nümunə göstərmək istəyirəm. Daxili qoşunlarda baş verən hər hansı daxili qanun pozuntuları ilə bağlı müvafiq komitələrimizdə mütləq dinləmələr keçirilə bilər. Komitə üzvlərinin hərbi hissələrə, hərbi birliklərə mütəmadi olaraq səfərləri təşkil oluna bilər. Onların əsgərlərlə, zabitlərlə söhbətləri həyata keçirilə bilər. Bundan başqa, alınan bütün silahlarla bağlı məsələ müvafiq komitələrdə müzakirə olunmalıdır. Onların qiymətləri, məqsədəuyğunluğu, hansı silahlar, hansı qiymətə və hansı həcmdə alınır. Yalnız müvafiq komitənin razılığı olduğu silah satışına, silah alışına icazə verilməlidir. Mən hesab edirəm, belə olduğu təqdirdə hərbi hissələrdə, tutaq ki, nizamnamə pozuntuları və digər məsələlərlə bağlı nöqsanları aşlar etmək və zamanında onların qarşısını almaq mümkündür. Bütün inkişaf etmiş ölkələrdə silahlı qüvvələr müvafiq komitələrlə birgə işləyirlər. Hesab edirəm ki, bizdə də belə bir nəzarət mexanizmi təşkil olunsa, bu, ümumi işin xeyrinə olar. Həm də biz

büdcə vəsaitlərinin xərclənməsinə də ciddi nəzarət həyata keçirə bilərik. Sağ olun.

**Sədrlik edən.** Milli Məclisdə müxtəlif mövzularda dinləmələr keçirilir. Ancaq qalan məsələlərlə bağlı hökumətimizdə müxtəlif qurumlar var ki, həmin o funksiyanı da yerinə yetirirlər. Bu mənim fikrimdir və düşünürəm ki, Milli Məclisin üzvləri də bununla razılaşarlar. Siz dediniz ki, Sizdə bir sıra məktublar var. Arzu müəllim, bu Sizin məsələnizdir. Ancaq mən xahiş edəcəyəm ki, Əli müəllim, sizin komitənizdə, xüsusi ilə Siz keçən dəfə cavab vermisiniz, Qüdrət müəllim Sizin də adınızı çəkdi, xahiş edirəm, üçünüz birlikdə bu məsələyə baxın, sonra isə öz qərarınızı deyərsiniz.

Arzu müəllim, sözünüz var? Varsa, sözünüzü deyin, yoxdursa...

**Arzu Nağıyev.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Evlə bağlı məsələ komitədə birinci dəfə dinləmədə qalxmışdı.

**Sədrlik edən.** Arzu müəllim, mən çox üzr istəyirəm. Mən bilirəm, qalxmışdı. Qüdrət müəllim onu özü də dedi. Mən artıq tapşırığımı verdim. Xahiş edirəm, bu məsələyə bir yerdə baxarsınız, sonra isə nəticəni deyərsiniz. Sağ olun.

Hörmətli həmkarlar, bu məsələ ilə bağlı müzakirəyə yazılan daha yoxdur. Mən istərdim ki, biz artıq səsverməyə keçək. Qanun layihəsinə maddələr üzrə səs verməliyik. Bu layihədə 30 maddə var, 6 fəsildən ibarətdir. Mən sizin icazənizlə, fəsil-fəsil səsə qoyacağam. Xahiş edirəm, preambulaya və I fəslə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.15 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 110 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.
Mən II fəsili səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.15 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 107 |
| Nəticə: Qəbul edildi | |

II fəsil də qəbul edildi.
III fəsili səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
|---|---|
| Lehinə | 107 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.
İndi isə IV fəsili səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 1 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Bu fəsil də qəbul edildi.

İndi isə V fəsili səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.16 dəq.) |
|---|---|
| Lehinə | 108 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 108 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi.

Nəhayət VI fəsili səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.17 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Bu fəsil də qəbul edildi.

İndi isə mən qanun layihəsini ikinci oxunuşda bütövlükdə səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.17 dəq.) |
|---|---|
| Lehinə | 109 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 109 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim növbəti məsələmiz "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihəyə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində baxılmışdır. Məsələyə dair məlumat vermək üçün komitənin sədri hörmətli Sadiq Qurbanova söz verirəm. Sadiq müəllim, buyurun.

**Sadiq Qurbanov**, *Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri.*

Çox sağ olun, dəyərli Sahibə xanım. "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Qanunda dəyişiklik edilməsi ilə bağlı birinci oxunuşda ətraflı məlumat vermişdik. İkinci oxunuşa qədər deputat həmkarlarım tərəfindən heç bir təklif və ya sual daxil olmamışdır. İkinci oxunuşda da olduğu kimi səsə qoymağı xahiş edirəm. Sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Sadiq müəllim.

İndi biz qanun layihəsini ikinci oxunuşda əsas kimi qəbul etməliyik. Xahiş edirəm, qanun layihəsinə münasibətinizi bildirəsiniz.

| **Səsvermənin nəticələri** | (saat 12.18 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 2 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi.

İndi isə müzakirəyə keçirik. Yazılanlar var. Vüqar Bayramov. Buyurun.

**Vüqar Bayramov**. Çox təşəkkür edirəm, hörmətli xanım sədr. Hörmətli xanım sədr, hörmətli millət vəkilləri, mən də qanun layihəsini dəstəkləyirəm və səs verəcəyəm. Enerji resurslarından səmərəli istifadə etmək, eyni zamanda, effektivliyin artırılması Azərbaycanda enerji sektorunda həyata keçirilən siyasətin əsas prioritetlərindəndir. Azərbaycan həm enerji keçidi, həm də enerji resurslarından səmərəli istifadə ilə bağlı bölgədə ən çox sərmayə qoyuluşu edən dövlətlərdəndir. Yalnız son illər bu sektora 1 milyard dolardan artıq xarici sərmayə cəlb olunub. Bu ondan xəbər verir ki, bir tərəfdən, xüsusən alternativ mənbələrdən enerji istehsalı, digər tərəfdən isə, enerji resurslarından səmərəli istifadə ilə bağlı kompleks siyasət həyata keçirilir.

İkinci oxunuşun tələblərinə uyğun olaraq, mən çox qısaca iki məsələni qeyd etmək istərdim. Əvvəla, qanun layihəsinin 17-ci maddəsində təklif olunan redaksiyada enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi üzrə tədbirlər nəzərdə tutulub. Bizim müzakirə etdiyimiz qanun layihəsində 17.3-cü maddənin əlavə olunması təklif edilir. Həmin maddədə yeni inşa edilən, yenidən qurulan binalarla yanaşı, əsaslı təmir olunan yaşayış və qeyri-yaşayış binalarının enerji effektivliyi üzrə pasportlaşdırılması məcburi xarakter daşıyacaq. Təmir məsrəflərinin mühasibat uçotunda əks etdirilməsinə dair qaydalarda

əsaslı və cari təmir bir-birindən fərqləndirilsə də, əsaslı və cari təmirin təsnifatı arasındakı ciddi fərqləri bir sıra hallarda müəyyənləşdirmək çətin olur. Baxmayaraq ki, məsrəflər qeyd olunan zaman bu meyarlar qaydalarda öz əksini tapıb. Bəzi hallarda hətta əsaslı təmir meyarlar aspektindən nisbətən cari təmir kimi qeyd oluna bilir. Çünki məsrəflərlə bağlı xüsusi limitlər və ya dəyər ifadəsində hər hansı limitlər müəyyənləşdirilməyib. Ona görə təklif etmək istərdim ki, 17.3-cü maddədə daha konkret və ölçülə bilən anlayışlardan istifadə olunsun. Xüsusən də bu qaydalarda konkret limitlərin müəyyənləşdirilməsi praktik olaraq əsaslı və cari təmir üzrə meyarların dəqiqləşməsinə xidmət edə bilər.

17.3.4-cü maddədə istisnalar nəzərdə tutulub. Təklif olunan qanun layihəsinə əsasən istehsal binaları istisna olaraq pasportlaşdırılmayacaq və ya pasportlaşdırılması məcburi xarakter daşımayacaq. Ona görə mən təklif etmək istərdim ki, xüsusən də ekosistemin strukturuna uyğun olaraq və biznesin inkişafı baxımından istehsal binaları ilə yanaşı, topdansatış üçün nəzərdə tutulan binalar da istisnalar siyahısına daxil olunsun. Düzdür, 17.3-cü və 3-cü maddələrdə anbarlar istisna olmaqla tətbiq edilən binalar kimi qeyd olunur. Amma anbarların təsnifatı ilə topdansatış üçün nəzərdə tutulan binaların təsnifatı fərqlidir. O baxımdan bu binaların da pasportlaşdırılmasının məcburi xarakter daşımaması daha məqsədəuyğun olardı. Nəticə etibarı ilə pasportlaşdırılma bir sıra hallarda zaman və müəyyən prosedurlar tələb edir. O baxımdan istisnalar siyahısının daha dəqiq müəyyənləşdirilməsinə və müəyyənləşdirmə siyahısının biznesin inkişafı aspektindən qiymətləndirilməsinə ehtiyac var. Bu, nəticə etibarı ilə, xüsusən biznesin inkişafı baxımından xüsusi bir dəstək olardı.

Bütövlükdə, qanun layihəsini dəstəkləyirəm və səs verəcəyəm. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Zahid Oruc. Buyurun.

**Zahid Oruc.** Təşəkkür edirəm. Hörmətli sədr, dəyərli millət vəkilləri, qeyd olunduğu kimi, layihə nəinki iqtisadi, sosial, eyni zamanda, milli təhlükəsizlik məsələsidir. Çünki gerçəkdən də, yüz illərdir, enerji kəşf olunandan hər bir ölkənin həyatının ayrılmaz parçasıdır və indiki qlobal dünyada daha çox önəmlidir.

Hörmətli sədr, bir-birinin ardınca bu sfera ilə bağlı gələn layihələr alqışa layiqdir. Mən hətta yaxşı xatırlayıram ki, bununla bağlı parlamentdə geniş dinləmələr keçirilmiş və müvafiq qurumların təmsilçiləri də orada iştirak etmişdilər. Enerji effektivliyi, enerji pasportu, enerji atlası, Azərbaycanın, ümumiyyətlə, enerji sisteminin vahidliyi və sair ətrafında da çox geniş müzakirələr cəmiyyətə də çıxmışdı. Yeri gəlmişkən, ən önəmli məsələ də xalqımızı bu mövzu ilə bağlı daha geniş məlumatlandırmaqdır.

İkinci oxunuşun tələbinə uyğun hansı məsələni vurğulamaq üçün yazıldım? Yalnız bircə cümlə. Bəlkə də birinci oxunuşla bağlı söyləyim. 1990-cı illərdən sonra bu prosesdə müəyyən bir pərakəndəlik onunla əlaqəli olub ki, ölkəyə çoxlu qeyri-effektiv yanacaq sistemləri daxil olub. Yalnız bir rəqəmi xatırlatmaq kifayətdir ki, 600 mindən artıq kombi, İrandan və qeyri yerlərdən gələn və bir sıra hallarda minimum standartlara cavab verməyən minlərcə, yüz minlərcə enerjitükətmə vasitələri və sair belə problemləri meydana çıxarır. Bəlkə dediyimiz effektivliyə nail olsaq, Azərbaycan, məsələn, qaza daxili tələbatda 13 milyard kubmetr qaz deyil, bəlkə də 7-8 milyardla da

qənaətlənə bilər. Hətta bununla sənayeni də qaldırmaq və beynəlxalq bazara da çıxarmaq olar. Burada qeyd olunubdur: enerji pasportu, enerji effektivliyi üzrə informasiya sistemi auditi və sair.

Hörmətli sədr, mən bayaq söylədim, qeyd olunan müzakirələrdə ən çox vurğulanırdı, biz zaman baxımından, bu qanunun tətbiqindən sonrakı vəziyyəti göz önünə gətirmək istəyirik. Bakı şəhərində bu dəqiqə müxtəlif küçələrdə amortizasiya dövrünü başa vurmuş binaların, yaxud da kiçik məhəllələrin söküntüləri baş verir. Bu, təqdirəlayiq hadisədir. Əhalinin yaşadığı məkan, yer mühüm sosial məsələdir, iqtisadi məsələdir. Amma biz hələ də mərkəzləşmiş istilik sistemini bu layihələrdə 1 nömrəli müddəa olaraq tikinti-arxitektura qurumlarının yerinə yetirəcəyi əsas tələb kimi qoymuruqsa, o halda bu qanunda yazılan əsas müddəaların tətbiqi ən azı 3-5 il də gecikəcək. Mahiyyət etibarı ilə bu gün o küçələrdəki, məhəllələrdəki yeni tikintilərin mərkəzləşdirilmiş istilik sistemi kənarda qurulur. Burada bizim o sfera ilə bağlı peşəkar insanlarımız var. İstilik sisteminin də vahidliyini təmin edəndə onu ölçən cihazlar, qurğular da yaradılıbdır. Bunlara uyğun ödəniş sistemini həyata keçirmək olar.

Biz sovet dönəmindən sonra kütləvi olaraq həmin o vahid qazanxana sistemlərinin üzərinə yeridik. Hətta bir sıra hallarda pis işləyir deyə, bizi öz əlimizlə daha artıq dərəcədə qeyri-effektiv iqtisadi sistemə, enerji sisteminə sanki aparmaq istəyirlər. İnsanlar da deyirlər ki, o yaxşı işləmirsə, biz fərdi xilas yoluna keçək. Bir kombinin istismarına vətəndaşlar tərəfindən 1 milyard manatdan artıq vəsait xərclənir. Halbuki mərkəzi sistem olsaydı, bundan qat-qat aşağı ola bilərdi.

Mən bu layihəni alqışlayıram, amma rica edirəm, onun

tətbiqi ilə, zaman müddəti və tikinti sferası ilə bağlı qanunvericiliyin bununla sinxronlaşması, unifikasiyası ciddi tələb olunur. Bakı şəhərində ən azı 70-80 faiz tikintilər hələ qarşıdadır. Çünki Bakı şəhərinin 2040-cı il baş planına görə, onlar nəzərdə tutulub. Bu onun faydasına olar. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Təklifiniz eşidildi.

Sadiq müəllim, buyurun. Bununla bağlıdır?

**Sadiq Qurbanov.** Çox sağ olun, dəyərli Sahibə xanım. Hər iki sual düşünməyə əsas verir ki, biz bu qanun layihəsində yazılanları bir daha aydın izah etməyə çalışaq. Vüqar müəllimin sualında pasportlaşma müəyyən zaman tələb edir. Biz növbəti – 11-ci məsələdəki layihədə elektron sistemlə bağlı zamanın qısaldılması yollarını artıq müəyyənləşdirmişik. Yəqin 11-ci məsələdə tanış olacaqlar.

İkincisi. Burada anbarlar və topdansatış məsələsinin ayrılması. Topdansatış binası başqa məqsədlər üçün də istifadə oluna bilər. Bu, bir təyinat deyil. Lakin yenə də 11-ci məsələdə 10 min kvadratmetrdən yuxarı olan binalarda dövlət orqanlarından məlumatların alınması və informasiya sisteminə daxil edilməsi nəzərdə tutulur.

Bizim hörmətli Zahid müəllimin dediyi məsələ. Biz bununla bağlı dinləmə keçirdik. Həmin o dinləmələrdə suallar aydın verildi. Həmin o sayğacların yerləşdirilməsi bu gün dünyada var. Böyük çətinliklər törədilir. Bilirsiniz, biz bununla bağlı yeni qanun qəbul etdik. Eyni zamanda, həmin sinxronlaşma prosesi, Zahid müəllim, artıq gedir. Energetika Nazirliyi ilə də bu barədə danışıqlar aparmışdıq. Onların da nümayəndəsi burada iştirak edirdi. Qısa bir zamanda. Bu, bir günün məsələsi deyil. Çünki yeni tikilən binalarda Azərbaycan Respublikasının Dövlət

Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən artıq yeni tələblər qoyulur, qoyulmalıdır. Eyni zamanda, bununla da bağlı gözlənilən bir çox qərarlar olacaq. İnşallah, hesab edirəm ki, çox yaxında Sizin dediyiniz o sinxronlaşma həyata keçiriləcək. Həmçinin vahid mərkəzdən idarə olunma ilə bağlı müzakirələr zamanı deyildi. Hələlik, bu gün ən effektiv variant budur. Çünki onların özü təsərrüfat hesablıdır, gəlirlə işləməlidir. Ona görə də biz bu sahədə sabit tariflərin müəyyən olunması ilə bağlı Milli Məclisdə qanun qəbul etdik. Sağ olun.

**Sədrlik edən.** Sağ olun.

Məsələ ilə bağlı daha çıxış etmək istəyən yoxdur. Hörmətli həmkarlar, qanun layihəsinin maddələr üzrə səsverməsinə keçirik. Layihədə 1 maddə var. Xahiş edirəm, həmin maddəyə münasibət bildirin. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Maddə qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.30 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti məsələmiz "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Arzu müəllim, Siz məlumat verəcəksiniz, sizin komitənizin məsələsidir. Buyurun.

**Arzu Nağıyev.** Təşəkkür edirəm, hörmətli xanım sədr. Layihənin əsas məqsədi müasir çağırışlara uyğun olaraq, bu sahədə aparılan islahatlarla və buna uyğun olan təkmilləşdirmələrlə bağlıdır. Təqdim edilən qanun layihələri ixtisaslaşmış hərbi qulluqçuların bilik və bacarıqlarından ölkəmizin müdafiəsində daha səmərəli və uzunmüddətli istifadəsinin təmin edilməsi, gizirlərin, miçmanların həqiqi hərbi xidmət keçməsi qaydalarının və bir sıra normaların təkmilləşdirilməsi məqsədi ilə hazırlanmışdır.

Təqdim edilən "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda dəyişikliklə bağlı qanun layihəsi Milli Məclisin plenar iclasında birinci oxunuşda müzakirə edilmiş və qəbul edilmişdir. Komitəyə əlavə təklif daxil olmamışdır. Yekdilliklə plenar iclasa ikinci oxunuşa tövsiyə edilmişdir. Səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Arzu müəllim.

Hörmətli həmkarlar, mən indi qanun layihəsini əsas kimi səsə qoyuram. Buyurun, münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.32 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə keçirik. Ancaq görürəm ki, heç kim yazılmayıb. Əgər heç kimin sözü yoxdursa, maddələr üzrə səsverməyə keçirik. Qanun layihəsi 2 maddədən ibarətdir. 1-ci maddəyə səs verək. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

1-ci maddə qəbul edildi.

İndi isə 2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi. Çox sağ olun.

İndi isə qanun layihəsi bütövlükdə səsə qoyulur. Buyurun.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Növbəti məsələmiz "Yol hərəkəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Məsələyə Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılmışdır. Komitənin üzvü hörmətli Nurlan Həsənov məlumat verəcək. Nurlan müəllim, buyurun.

**Nurlan Həsənov,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü.*

Təşəkkür edirəm, hörmətli Sahibə xanım. Layihə ilə bağlı ilk oxunuş zamanı geniş məlumat verilmişdir. Qanun layihəsinin mətni ilə bağlı deputat həmkarlarımız tərəfindən hər hansı bir rəy və təklif daxil olmamışdır. Qanunvericilik təşəbbüsü subyekti tərəfindən qanun layihəsinin mətnində, sadəcə, texniki xarakterli düzəliş edilmişdir. Deputat həmkarlarımdan qanun layihəsini yenidən dəstəkləmələrini xahiş edirəm.

**Sədrlik edən.** Çox sağ olun, Nurlan müəllim.

Hörmətli həmkarlar, qanun layihəsini əsas kimi səsə qoyuram. Buyurun.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.34 dəq.) |
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |

| | |
|---|---|
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi əsas kimi qəbul edildi.

Müzakirəyə heç kim yazılmayıb. Səsverməyə keçirik. Qanun layihəsində 2 maddə var. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
|---|---|
| Lehinə | 104 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

1-ci maddə qəbul edildi.

İndi isə 2-ci maddəni səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 103 |
| Nəticə: Qəbul edildi | |

Bu maddə də qəbul edildi.

İndi isə mən qanun layihəsini bütövlükdə səsə qo-yuram. Buyurun, münasibətinizi bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim sonuncu məsələmiz "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsidir. Layihə birinci oxunuşda müzakirəyə təqdim edilir. Layihəyə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsində baxılmışdır. Məsələyə dair, Sadiq müəllim, mən yenə Sizdən xahiş edirəm, məlumat verin.

**Sadiq Qurbanov.** Çox sağ olun. Dəyərli Sahibə xanım, hörmətli həmkarlar, bu da "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Azərbaycan Respublikasının Qanununda növbəti dəyişiklikdir. Bu da enerji effektivliyi informasiya sisteminin yaradılması və məlumatların daxil edilməsi ilə bağlıdır. Bu məqsədlə həmin qanuna 4-1-ci maddə əlavə olunur. Eyni zamanda, 6.3-cü maddə genişləndirilir. Həmçinin, dəyişikliyə əsasən 17.1.5-ci maddə də əlavə olunur.

Sizə təqdim etdiyimiz bu qanun layihəsinə görə, Azərbaycanda yaradılması təklif olunan enerji effektivliyi və informasiya sistemi, enerji səmərəliliyi sahəsində dövlət siyasətinin icraatına nəzarəti həyata keçirməyə, müvafiq sahədə elektron xidmətləri göstərməyə və icra göstəricilərini operativ almağa kömək edəcəkdir. Belə ki, sistem üzərindən enerji auditoru ixtisas attestatının alınması məqsədi ilə müraciətlər qəbul ediləcək, enerji auditorları və enerji auditi təşkilatlarının reyestri əks olunacaq. Enerji istehsalı, təchizatı və istehlakı sahə-

lərində nəzarət subyektləri hesabatlarını sistemə daxil edəcəklər.

Mövcud qanuna əsasən enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi sahəsində dövlətin aşağıdakı məhdudlaşmayan vəzifələri müəyyən edilmişdir:

1. Enerji effektivliyi üzrə tədbirlərin həyata keçirilməsinin faydası, iqtisadi, ekoloji və sosial üstünlükləri haqqında enerji istehlakçılarının maarifləndirilməsi və məlumatlandırılması;

2. Ayrı-seçkiliyə yol vermədən şəffaf və enerjinin istehsalı, saxlanması, ötürülməsi, nəqli, paylanması, satışında və istehlakında iştirak edən tərəflərin maraqlarına uyğun enerji audit sisteminin fəaliyyətinin təmin edilməsi;

3. Enerji effektivliyi üzrə xidmət bazarının inkişaf etdirilməsi;

4. Enerji resurslarından səmərəli istifadə sahəsində dövlət nəzarətinin həyata keçirilməsi;

Nəhayət, binaların enerji effektivliyi üzrə pasportlaşdırılmasının həyata keçirilməsi.

Qeyd etmək istərdim ki, məcburi enerji auditi subyektlərinin siyahısının müəyyən edilməsi üçün illik enerji istehlakı məlumatlarının müvafiq enerji təchizatçılarından və 10 min kvadratmetrdən yuxarı tikinti sahəsinə malik olan qeyri-yaşayış binaları barədə məlumatların isə aidiyyəti dövlət orqanlarından alınması zəruridir. Bu məlumatların sistemə aidiyyəti orqanlardan mütəmadi qaydada daxil edilməsi və ya mövcud digər sistemlərlə inteqrasiyası məlumatların əldə edilməsini və emalını asanlaşdıracaq.

Sistemin ictimaiyyətə açıq hissəsində isə əhali üçün enerji səmərəliliyinə dair maarifləndirici məlumatların, enerjiyə qənaət kalkulyatorunun, enerji istehlakına dair statistikanın və sairin yerləşdirilməsi nəzərdə tutulmuşdur.

Sistemin istifadəyə verilməsi nəticəsində informasiyanın şəffaflığının artırılmasına və dövlət xidmətlərinin səmərəliliyinin artırılmasına töhfə veriləcək, kağız daşıyıcılardan istifadə minimuma endiriləcək.

Sistemin tətbiqi, eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 16 yanvar tarixli 287 nömrəli Fərmanına və həmin fərmanla təsdiq edilmiş "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası"na da uyğundur. Yuxarıda qeyd edilənləri nəzərə alaraq enerji səmərəliliyi sahəsində qanunvericiliyin effektiv icrasını və nəzarəti, eləcə də strategiyanın müvafiq tədbirinin icrasını təmin etmək məqsədi ilə enerji effektivliyi informasiya sistemi elektron portalının tətbiqi ilə bağlı "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Qanunda dəyişikliklər təklif olunur. Mən də sizi bu qanun layihəsini dəstəkləməyə dəvət edirəm.

Qeyd etmək  istəyirəm ki, bu layihənin qəbul edilməsi ilə əlaqədar ləğv olunmalı olan Azərbaycan Respublikası Nazirlər Kabinetinin və mərkəzi icra hakimiyyəti orqanlarının normativ heç bir hüquqi aktı yoxdur. Layihənin qəbul edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilməsi nəzərdə tutulan "Enerji effektivliyi informasiya sisteminin Əsasnaməsi" layihəsi hazırlanmalıdır.

Diqqətinizə görə çox sağ olun. Hər kəsi müsbət səs verməyə dəvət edirəm.

**Sədrlik edən.** Sağ olun.

Müzakirəyə keçirik.

Bundan əvvəl, Vüqar müəllim, qaldırdığınız məsələ burada öz əksini tapdı. Əgər hansı isə sualınız olsa, müraciət edərsiniz.

Asif Əsgərov. Asif müəllim, buyurun.

**Asif Əsgərov.** Təşəkkür edirəm. Çox hörmətli Sahibə xanım, hörmətli millət vəkilləri, media nümayəndələri. Mən də fürsətdən istifadə edib qarşıdan gələn Zəfər Gününün 5-ci ildönümü münasibəti ilə hər birinizi, xüsusi ilə də müzəffər Ali Baş Komandanımız, qüdrətli sərkərdəmiz, Prezidentimiz başda olmaqla bütün xalqımızı ürəkdən təbrik edirəm.

Bu gün müzakirəmizə təqdim olunan "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Qanuna dəyişikliklərlə bağlı qanun layihəsi ölkəmizin enerji siyasətində mühüm bir mərhələnin başlanğıcını qoyur. Bu dəyişikliklər yalnız texniki və inzibati yenilik deyil, həm də enerji təhlükəsizliyinin, ekoloji davamlılığın və bu istiqamətdə dövlət idarəçiliyində şəffaflığın gücləndirilməsi baxımından atılan ciddi bir addımdır.

Bildiyimiz kimi, enerji səmərəliliyi təkcə iqtisadi məsələ deyil, bu, həm də ekoloji məsuliyyət, sosial rifah və milli təhlükəsizlik məsələsidir. Enerjinin düzgün və qənaətli istifadəsi resursların qorunmasına və istehsal xərclərinin azalmasına xidmət etməklə yanaşı, gələcək nəsillər üçün davamlı inkişafın təmin olunmasında mühüm rol oynayacaqdır. Bu mənada təqdim olunan dəyişikliklər strateji əhəmiyyət daşıyır və Azərbaycanın enerji idarəetməsində yeni mərhələyə keçidini sürətləndirəcəkdir.

Layihədə ən önəmli yenilik enerji effektivliyi informasiya sisteminin yaradılmasıdır. Bu sistem dövlətin enerji səmərəliyi siyasətini vahid elektron platforma üzərindən həyata keçirməyə imkan verəcəkdir. Bu platforma vasitəsi ilə enerji auditi və nəzarət mexanizmləri, həmçinin enerji auditorlarının və audit təşkilatlarının reyestrləri, binaların enerji effektivliyi üzrə pasport-

laşdırılması, enerji effektivliyi üzrə xidmətlərin icraçılarının siyahısı və məcburi enerji auditi keçirilməli olan təsərrüfat subyektləri barədə məlumatlar elektron şəkildə aparılacaq.

Qeyd olunmalıdır ki, bu yanaşma təkcə enerji idarəetməsi sahəsində şəffaflıq yaratmır, həm də prosesləri sadələşdirir. Artıq müəssisələr, dövlət qurumları və vətəndaşlar üçün lazımi məlumatlara bir mərkəzdən və real vaxt rejimində çıxış mümkün olacaqdır. Bu məlumatların böyük hissəsi – enerjiyə qənaət üsulları, enerji statistikası, həmçinin enerjiyə qənaət kalkulyatoru kimi faydalı alətlər ictimaiyyət üçün açıq olacaq ki, bu da həm maarifləndirməyə, həm də ictimai nəzarətin gücləndirilməsinə əlverişli şərait yaradacaq və enerji israfının qarşısını almaq üçün real davranış dəyişikliyinə təkan verəcəkdir. Nəticə etibarı ilə təklif olunan dəyişiklik yalnız enerji effektivliyini deyil, həm də idarəetmədə şəffaflığı, məsuliyyəti və innovativ yanaşmanı təmin edəcəkdir.

Qanunun 6.3-cü maddəsinə edilən dəyişikliklər də bu baxımdan xüsusi əhəmiyyət kəsb edir. Burada göstərilir ki, məcburi enerji auditi keçirilməli olan obyektlərin siyahısı artıq enerji effektivliyi informasiya sisteminə daxil edilən məlumatlar əsasında müəyyən ediləcəkdir və bununla da məlumatların toplanmasında və qiymətləndirilməsində obyektivlik təmin ediləcək, subyektiv yanaşmaların qarşısı alınacaq və qərarvermə prosesi tam şəffaflaşdırılacaqdır.

17-ci maddəyə əlavə edilən yeni bəndlə isə sistemin fəaliyyət qaydaları hüquqi müstəviyə keçirilir. Beləliklə, həm texniki, həm normativ, həm də inzibati idarəetmə mexanizmləri bir-birini tamamlayaraq vahid strukturda

formalaşır. Bunun nəticəsində icra intizamı və sistemin davamlı işləməsi təmin ediləcəkdir.

Hörmətli xanım sədr, hörmətli həmkarlar, onu da qeyd etmək istəyirəm ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda enerji səmərəliliyinin artırılması və bu sahədə monitorinq və hesabatlılıq sisteminin tətbiqi dövlətin əsas prioritetlərindən biri kimi müəyyən edilmişdir. Bu gün müzakirə etdiyimiz qanuna dəyişikliklər layihəsi həmin strateji məqsədlərin reallaşmasına xidmət edir. Bu, gələcək nəsillərə daha səmərəli enerji idarəetməsi, daha təmiz ətraf mühit və daha güclü iqtisadiyyat miras qoymaq deməkdir.

Son olaraq qeyd etmək istərdim ki, bu qanun layihəsi ölkəmizin həm iqtisadi maraqlarına, həm də ekoloji dəyərlərinə xidmət edir. Mən əminəm ki, qəbul ediləcək dəyişikliklər enerji sektorunda idarəetməni müasirləşdirəcək, rəqabətliliyi artıracaq və dövlətimizin beynəlxalq imicini daha da möhkəmləndirəcəkdir. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun, Asif müəllim.

Hörmətli həmkarlar, daha çıxış etmək istəyən yoxdur. Mən qanun layihəsini birinci oxunuşda səsə qoyuram. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 12.46 dəq.) |
|---|---|
| Lehinə | 105 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 105 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qanun layihəsi birinci oxunuşda qəbul edildi.

Hörmətli həmkarlar, bizim bugünkü məsələlərimiz artıq bitdi. İclasımız da başa çatdı. Mən bir məsələni də vurğulamaq istərdim. Azər müəllim, Siz torpaq məsələsini qaldırdınız. Mən xahiş edirəm, yanınızda oturan hörmətli həmkarımız Tahir müəllim, bir də Əli müəllim Hüseynli, bu məsələyə baxın.

Fazil müəllim, Siz məktəb məsələsini qaldırmışdınız. Xahiş edirəm, Anar İsgəndərovla bir yerdə müzakirə aparasınız.

Qüdrət müəllim, məktublarla bağlı artıq dedim.

Hörmətli həmkarlar, növbəti iclasın vaxtı sizə deyiləcək. Hələlik isə sağ olun.

# EDİLMƏMİŞ ÇIXIŞLARIN MƏTNLƏRİ

***31 oktyabr 2025-ci il***

**Afət Həsənova.** Bizi tariximizin ən şərəfli səhifəsi, böyük qürur və iftixar hissi ilə qeyd edəcəyimiz 8 Noyabr Zəfər Günündən bir neçə gün ayırır. Bu əlamətdar tarix yalnız hərbi bir qələbə deyil, həm də uzun illər davam edən ədalətsizliyin, ağrının sonunun simvoludur.

Bildiyiniz kimi, Azərbaycan torpaqlarında nəinki hələ Sovet illərindən əvvəl, hətta Çar Rusiyası vaxtında belə ermənilərin məqsədli şəkildə yerləşdirilməsi türk millətinin bir-birindən təcrid olunması və parçalanması siyasətinin tərkib hissəsi idi. Nəticə etibarı ilə Ulu Öndərimizin dediyi kimi, bu, bir zamana hesablanmış bomba siyasəti idi: “Sovetlər dövründə mən Azərbaycana 14 il rəhbərlik etmişəm. 1923-cü ildə yaradılan [illegible] Qarabağ Muxtar Vilayətinin tarixini çox yaxşı [illegible] Dağlıq Qarabağa muxtariyyət verilməsi Azərb[illegible] başına bir bəla olub. Dağlıq Qarabağa verilən muxtariyyət Azərbaycanın içinə qoyulmuş bomba idi. Nə zamansa bu bomba partlamalı idi”.

Təbii olaraq bu siyasət Azərbaycan torpaqlarında demoqrafik və siyasi balansın pozulmasına və gələcək münaqişələrin yaranmasına gətirib çıxardı. 20-ci əsrin 80-ci illərinin sonunda bu siyasət Ermənistanda yaşayan təxminən 300 min soydaşımızın etnik təmizlənməsinə məruz qalaraq doğma yurd-yuvalarından didərgin düşməsi və bəzilərinin də müxtəlif qeyri-adi, insanlıqdankənar üsullarla qətli ilə nəticələnmişdir.

Bilirsiniz ki, bundan sonra torpaqlarımızın işğalı məqsədi ilə baş vermiş Birinci Qarabağ müharibəsi zamanı Azərbaycan 20 mindən artıq şəhid verdi. Torpaqlarımızın 20 faizi işğal olundu və 30 il ərzində milyonlarca soydaşımız məcburi köçkün həyatı yaşadı. Hər birimiz o şaxtalı günlərdə soydaşlarımızın, ana və bacılarımızın, körpələrimizin çadır şəhərciklərində necə yaşadıqlarını, zənnimcə, unutmamışıq və unuda bilmərik.

Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıtması ilə atəşkəs əldə olunduqdan sonra ölkəmizdə dirçəliş, güclü iqtisadiyyat və ordu quruculuğunun əsası qoyuldu. Şanlı tariximiz olan İkinci Qarabağ müharibəsi bariz nümunədir ki, müzəffər Ali Baş Komandan cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən siyasət nəticəsində ölkəmiz sabit iqtisadiyyat, müasir orduya və uğurlu xarici siyasətə nail olmaqla, nəticə etibarı ilə 30 il ərzində işğal altında olan torpaqlarımızı azad etməklə bərabər, həm də tarixi ədaləti bərpa etdi. Belə ki, Ermənistanın həmləsinə cavab olaraq 2020-ci il sentyabrın 27-də başlayan həmin İkinci Qarabağ müharibəsi cəmi 44 gün davam etdi. Bu müddət ərzində Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Hadrut, Şuşa və onlarca kənd, həmçinin razılaşma əsasında digər ərazilərimiz sonradan döyüşmədən azad edildi. Bilirsiniz ki, Şuşanın azad olunması Azərbaycan əsgərinin rəşadətinin zirvəsi oldu. Bu qəhrəmanlıq həm də xalqın və dövlətin iradəsinin təcəssümüdür. Cənab Prezidentimizin dediyi kimi, "Şuşa əməliyyatı aparıcı beynəlxalq hərbi məktəblərin dərsliklərinə salınacaqdır".

Bu gün azad olunmuş ərazilərimizdə bərpa və quruculuq işləri geniş vüsət alıb. Yeni şəhərlər, yollar, körpülər, hava limanları, tunellər, təhsil müəssisələri tikilir və hazır-

da fəaliyyət göstərir. Buraya həyat geri qayıdır, doğma torpaqlarımızda Böyük Qayıdış prosesi uğurla icra edilir, hətta beynəlxalq tədbirlər keçirilir. Bütün bunları Azərbaycan dövləti heç bir xarici dəstək olmadan təmin edir.

Əlbəttə, biz qələbəmizi ilk növbədə ön cəbhədə düşmənlə üz-üzə vuruşan, şəhid, qazi və veteran olmuş oğullarımıza, arxa cəbhədə xidmət göstərən başda tibb işçilərimiz olmaqla, ürəyi hər an əsgər və zabitlərimizin yanında olan xalqımıza, yəni özümüzə borcluyuq.

Bəzən görürük, siyasətçi olmayan siyasətdən, hərbçi olmayan müharibədən danışır. Amma həqiqət budur ki, xalqı və dövləti qələbəyə aparmaq üçün məsuliyyət, soyuqqanlı qərar və strateji uzaqgörənlik tələb olunur. Bu mənada düşünürəm ki, Prezident İlham Əliyevin tarixi sözləri hər birimizin yaddaşında nümunəvi əhəmiyyət daşıyır: “Mən nəyi, nə vaxt, necə edəcəyimi yaxşı bilirəm”. Bu cümlə yalnız bəyanat deyil, bu, Zəfərin fəlsəfəsidir.

Bu Zəfərimizdə bu günlərdə Cümhuriyyətinin ildönümünü qeyd edən qardaş Türkiyənin mənəvi dəstəyini qeyd etməmək olmaz. Bəli, Azərbaycan və Türkiyə – bir millət, iki dövlət prinsipinə sadiq qalaraq, bölgədə həm siyasi, həm iqtisadi, həm də hərbi sahədə güclü birlik yaratmışdır. Hətta Türk Dövlətləri Birliyində Türkiyə ilə yanaşı, Azərbaycan bu gün yalnız iştirakçı deyil, aparıcı və nüfuz sahibi dövlət olaraq çıxış edir, türk dünyasının gələcək inkişafına töhfəsini verir. Bu birlik, həmçinin ölkəmizin beynəlxalq aləmdə söz sahibi olmasına, regionda sabitliyin təmin edilməsinə və strateji təşəbbüslərin reallaşmasına imkan yaradır.

Bu reallıqdır ki, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan yalnız regionda deyil, dünyada söz sahibi olan güclü dövlətə çevrilmişdir. Ölkəmiz xarici

siyasətdə nüfuz qazanmışdır və beynəlxalq forumlarda öz mövqeyini qətiyyətlə ifadə edir. Bildiyiniz kimi, ABŞ-da Azərbaycan və Ermənistan arasında sülh müqviləsinin paraflanması, həmçinin Yaxın Şərq Sülh Sammitində ABŞ Prezidenti Donald Tramp ilə, eləcə də Rusiya və digər dövlətlərin liderləri ilə görüşlər zamanı Azərbaycan öz gücünü, müvafiq sahələrdə mövqeyini və liderliyini layiqincə nümayiş etdirmişdir. Hətta bu görüşlərdə Tramp Azərbaycan Prezidentinə xüsusi simpatiya göstərmiş, onun strateji qətiyyətini və rəhbərliyini yüksək qiymətləndirmişdir.

Bu xarici siyasət nəticəsində bilirsiniz ki, Zəngəzur dəhlizi də artıq öz müsbət həllini tapır. Beləliklə, Azərbaycan beynəlxalq aləmdə ticarət, nəqliyyat və digər kommunikasiya şəbəkəsində öz tarixi yerini yenidən bərqərar edəcəkdir.

**Asəf Əsgərov.** Bu gün biz böyük qürur və fəxarət hissi ilə Azərbaycanın şanlı Zəfər Gününün – 8 noyabr tarixinin 5 illiyini qeyd edirik. Bu tarix bizim milli yaddaşımıza qızıl hərflərlə yazılmış bir gündür. Bu gün təkcə bir qələbə günü deyil, bu, xalqımızın birliyinin, qəhrəmanlığının və azadlıq ruhunun təntənəsidir.

Vətən müharibəsi və onun qələbə ilə başa çatması müasir Azərbaycan dövlətinin həyatının ən parlaq anları kimi tariximizin bundan sonrakı dönəmlərində daim xüsusi qürur və iftixar hissi ilə xatırlanacaqdır. Çünki bu, millətin ümid, inam, qürur anları idi. Bu, ölkəmizin yeni tarixinin başlanğıcı, yeni inkişaf üfüqlərinin açılması məqamıdır.

Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz işğalçı Ermənistan üzərində möhtəşəm qələbə

qazandı, xalqımızın 30 illik həsrətinə son qoyuldu. Ali Baş Komandanımızın düşünülmüş strategiyası, siyasi iradəsi və qətiyyəti sayəsində ordu ilə xalqın sarsılmaz birliyi təmin olunaraq qazanılan tarixi Zəfərdən sonra qərinələr keçəcək, illər ötəcək, tarix isə bu şanlı qələbəni xalqımızın taleyinin ən parlaq səhifəsi kimi heç vaxt unutmayacaq.

Çağdaş tariximizə müstəqil Azərbaycanın Vətən müharibəsi adı ilə yazılan Qarabağ savaşının xalqımızın möhtəşəm qələbəsi ilə başa çatmasından keçən həftələr, aylar bu Zəfərin misilsiz bir qəhrəmanlıqla qazanıldığını hər birimizə getdikcə daha dərindən anladır. Bu qələbə, həqiqətən, son 30 ildə başqa heç bir yolla mümkün olmayan, illər keçdikcə bir az da mürəkkəbləşib dolaşığa salınan Qarabağ münaqişəsinə yalnız xalqımızın öz iradəsi və gücü ilə son qoyulmasının təntəntəsidir. 44 gün davam edən Vətən müharibəsi bir daha göstərdi ki, Azərbaycan xalqı bir yumruq kimi birləşəndə qarşısında heç bir güc dayana bilməz.

Bütün dünyada öz peşəkarlığı və rəşadəti ilə tanınan Azərbaycan Ordusu sayəsində çox qısa müddətdə qazanılan bu tarixi hərbi nailiyyətə şahidlik etmək möhtəşəmdir. Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi dövlətçilik siyasəti və bu siyasəti uğurla davam etdirən dövlət başçısı cənab İlham Əliyevin müzəffər sərkərdəliyi, onun ən yaxın silahdaşı, ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın diqqət və qayğısı, hədsiz vətən sevgisi və ordumuzun yenilməz döyüşkənliyi ilə gerçəkləşmiş bu Zəfər haqlı olaraq son ikiminillik dövlətçilik tariximizin ən parlaq qələbəsi sayılır.

Bəli, bu Zəfərin memarı müzəffər Ali Baş Komandan İlham Əliyev, bu qələbənin qəhrəmanları isə şəhidlərimiz və qazilərimizdir. Zəfər Günü təkcə qələbə bayramı deyil,

bu gün şəhidlərimizin müqəddəs xatirəsinə ehtiram, qazilərimizə minnətdarlıq və gələcək nəsillərə məsuliyyət günüdür. Biz bu torpaqları azad edən qəhrəmanlarımızın qarşısında baş əyir, onların fədakarlığını, vətən sevgisini dərin hörmətlə yad edirik.

Dövlətimiz azad edilmiş ərazilərin bərpası, infrastrukturun yenilənməsi, şəhər və qəsəbələrin dirçəldilməsi istiqamətində mühüm işlər görür. Bu, təkcə fiziki quruculuq deyil, milli ruhun bərpası, dövlətimizin gələcəyə inamla addımlamasıdır. Bütün bunlar Azərbaycanın qalib dövlət kimi mövqeyini daha da möhkəmləndirir.

Zəfər Günü bizə həm də məsuliyyət hissi aşılayır. Bu qələbəni qorumaq, onun mənəvi dəyərini yaşatmaq və gələcək nəsillərə ötürmək borcumuzdur. Çünki bu Zəfər Azərbaycanın əzmini, birliyini və dövlətimizin qüdrətini əks etdirən ən ali dəyərdir. Bu gün hər bir azərbaycanlı üçün həm də müstəqilliyimizin və əbədi azadlığımızın rəmzidir. Qoy, bu möhtəşəm günün sevinci daim ürəklərimizdə yaşasın, üçrəngli bayrağımız azad Qarabağ səmasında əbədi dalğalansın.

**Azay Quliyev.** Noyabrın 8-də müasir tariximizin ən şanlı, ən qürurlu səhifələrindən birinin – Zəfər Gününün beşinci ildönümünü təntənəli şəkildə qeyd edəcəyik. 8 Noyabr artıq təkcə təqvimdə bir tarix deyil, millətimizin əzmini, ordumuzun gücünü, dövlətimizin qüdrətini və Prezidentimizin sarsılmaz iradəsini simvolizə edən müqəddəs bir gündür.

Müasir və qüdrətli Azərbaycan dövlətinin banisi, tarixi Zəfərimizin təməl prinsiplərinin müəllifi Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini dərin hörmət və ehtiramla yad edərək Zəfər Gününün 5 illiyi münasibəti ilə başda müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev,

Birinci vitse-prezident hörmətli Mehriban xanım Əliyeva olmaqla xalqımızı, Silahlı Qüvvələrimizin bütün mənsublarını, şəhid ailələrini və qaziləri ürəkdən təbrik edirəm.

Hörmətli xanım sədr, Sizin rəhbərliyinizlə Milli Məclis son 5 ildə cənab Prezidentin qələbə strategiyasının parlament ölçüsündə təmin olunmasında mühüm rol oynadı. Hər bir millət vəkili parlament diplomatiyasında və qanunvericiliyin qələbənin tələblərinə uyğunlaşdırılmasında öz missiyasını şərəflə yerinə yetirdi. Bu münasibətlə Sizi, həmkarlarımı və Milli Məclisin mərkəzi aparatının bütün əməkdaşlarını Zəfər bayramı münasibəti ilə təbrik edirəm.

Keçən 5 ildə bu müqəddəs tribunadan dəfələrlə çıxış edərək Vətən müharibəsindəki qələbəmizdən, Qarabağda separatizmə birdəfəlik son qoymağımızdan böyük iftixarla söz açmış və haqlı olaraq dövlətimiz, xalqımız, Prezidentimiz və ordumuzla qürur duyduğumuzu bildirmişik. Bəli, 2020-ci ilin noyabrında və 2023-cü ilin sentyabrında Azərbaycan xalqı otuz illik işğala və ədalətsizliyə son qoydu, ərazi bütövlüyünü, suverenliyini və konstitusion quruluşunu tam bərpa etdi.

Torpaqlarımızın işğalçılardan, separatçılardan təmizlənməsi təkcə hərbi qələbə deyildi, bu, həm də, siyasi, hüquqi və mənəvi qələbə idi. Bu qələbənin müəllifi, bu Zəfərin memarı müzəffər Ali Baş Komandan İlham Əliyevdir. Onun "Dəmir Yumruğ"u və siyasi zəkası yalnız düşməni məhv etmədi, həm də xalqa özünəinamı və zədələnmiş milli heysiyyatını qaytardı. Bu qələbə Azərbaycan Ordusunun şücaətini, Azərbaycan əsgərinin igidliyini və Azərbaycan xalqının sarsılmaz birliyini bütün dünyaya nümayiş etdirdi.

Müharibə günlərində bütün xalq bir ürək, bir yumruq kimi Ali Baş Komandanın ətrafında birləşdi. Cəbhədə

döyüşən hər bir əsgər, arxada dua edən hər bir ana, bayrağımızı qaldıran hər bir gənc  bu Zəfərin qəhrəmanıdır. On minlərcə gənc könüllü olaraq cəbhəyə yazıldı, orduda bir nəfər də olsun, fərari olmadı, yaralılar belə "məni sağaldın, cəbhəyə qayıdım" dedilər. Bax, budur Azərbaycan  millətinin mənəvi portreti! Bu qələbə  dünyada yeni presedent, Cənubi Qafqazda isə yeni geosiyasi reallıqlar yaratdı.

Otuz il xalqımızın başına gətirilən faciələrə susan dünya gördü ki, pozulmuş haqq-ədaləti Azərbaycan milləti öz iradəsi və gücü  ilə bərpa etməyi bacardı,  qələbəni əvvəl döyüş meydanında, sonra isə diplomatiya masasında təmin etdi. Sonda hüquqlarımızı tanımaq istəməyən qlobal mərkəzlər  Azərbaycanın haqlı olduğunu qəbul etməyə məcbur oldular. Heç nəyə yaramayan, ölkəmizə qarşı təzyiq alətinə çevrilən ATƏT-in Minsk qrupu və ona aid strukturlar Zəfərimizin təsdiqi və məntiqi nəticəsi kimi rəsmən ləğv edildi və tarixin arxivinə göndərildi.

Azərbaycan indi  bölgədə sülh, əməkdaşlıq və dayanıqlı inkişaf üçün yeni bir səhifə açır. Bu gün regionda baş verən hər bir proses ölkəmizin diktə etdiyi şərtlər çərçivəsində formalaşır. İşğaldan azad edilmiş torpaqlarda hava limanları, magistral və dəmir yolları, tunellər, ağıllı kəndlər  inşa olunur. On minlərcə vətəndaş artıq doğma torpağına dönüb, Qarabağda və Şərqi Zəngəzurda həyat yenidən canlanır, Xankəndidə fəaliyyət göstərən Qarabağ Universiteti bu dirçəlişin simvoluna çevrilib.

Bu gün qarşımızda yeni bir mərhələ durur, Zəfərimizi qorumaq, qalıcı sülhü bərəqrar etmək və Böyük Qayıdışı sürətləndirmək. Əminik ki, Azərbaycan xalqı müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin müdrik və qətiyyətli liderliyi altında bundan sonra da qarşısında du-

ran bütün milli hədəflərə nail olacaq, Zəfərimizi əbədiləşdirəcək, Azərbaycanın qüdrətini daha da artıracaqdır.

Allah şəhidlərimizə rəhmət eləsin! Zəfər Günümüz mübarək olsun!

**Azər Kərimli.** Vətən müharibəsinin və lokal antiterror tədbirlərinin nəticələrini simvolizə edən Zəfər bayramı Azərbaycan dövlətçiliyinin və xalqının tarixinin ən şərəfli salnaməsidir. İllər, yüz illər keçəcək, Azərbaycan xalqının, dövlətinin və onun müzəffər ordusunun Prezident, Ali Baş Komandan İlham Əliyevin liderliyi ilə əldə etdiyi ədalətli və ləyaqətli Zəfərə aparan yolun hər qarışı daha dərindən nəzərdən keçiriləcək, torpaqlarımızın işğaldan azad edilməsinin, suverenliyimizin bərpasının alt qatlarında nə qədər böyük bir zəhmətin, strateji zəkanın, Vətən sevgisinin dayandığı daha aydın, daha qabarıq görünəcəkdir.

Sirr deyil ki, Prezident İlham Əliyev Azərbaycanın dövlət başçısı seçildiyi ilk gündən bir azərbaycanlı və bir övlad olaraq atasının və ataların vəsiyyətinin yerinə yetirilməsi istiqamətində bu gün sözlə ifadə edilməyəcək qədər çətin bir vəzifəni addım-addım, səbirlə, inadla, xalqını kataklizmlərdən, məhrumiyyətlərdən qoruyaraq yerinə yetirməyi bacarıb. Bu müddət ərzində diplomatiya, iqtisadiyyat, ordu quruculuğu, mədəniyyət, idman və digər istiqamətlərdə həyata keçirilən siyasətin ayrı-ayrı detallarına nəzər saldıqca qeyd olunan istiqamətlərdə atılan hər addımın Zəfər yürüşümüzün tərkib hissəsi olduğunu görə bilərik. Prezident İlham Əliyev təkcə müzəffər Ali Baş Komandan deyil, bütün dünya azərbaycanlılarının milli birliyini təmin edən, onları bütöv vətən ideyası ətrafında birləşdirən tarixi bir missiyanın lideri, böyük Zəfərimizin şanlı memarıdır.

Bu gün dünyada, xüsusi ilə də yaşadığımız bölgədə baş

verən hadisələr Azərbaycan xalqının azad və müstəqil yaşamaq istəyini, istiqlal ideallarını, dağlarına, çaylarına, bütövlükdə, hər qarışına ad verdiyi, uğrunda canını, ömrünü fəda etdiyi torpaqlarına sahiblənmək kimi müstəsna haqqını qəbul edə bilməyən gizli-aşkar, yaxud gizlindən aşkara çıxan düşmənlərimizin xəyanətkar simalarını daha aydın görə bilərik.

Ədalət hissini itirmiş, hiyləgər, məkrli düşmənlərin bitib tükənməyən tələlərindən sıyrılaraq dünya hərb tarixinə qızıl hərflərlə yazılan qəhrəmanlıq salnaməsini yazmaq, sadəcə, iti zəka, strateji düşüncə deyil, vətəninə və xalqına nəhayətsiz sevgi, sonsuz sədaqət, milli iradəyə söykənən qətiyyət və xalqını bir yumruq kimi birləşdirmək, səfərbər etmək bacarığı tələb edir.

Şübhəsiz ki, bizi Zəfərə aparan yol 44 gündən ibarət deyil. 44 gün bu prosesin döyüş meydanında cərəyan edən hissəsidir. Uzun bir vaxt ərzində Azərbaycan Prezidenti ölkə iqtisadiyyatının inkişaf etdirilməsi, Azərbaycanın beynəlxalq müstəvidə mövqelərinin güclənməsi və müttəfiqlərinin artması, ölkəmizin mövqelərini müdafiə edən dövlətlərin çoxalması, milli maraqlarımızın müdafiəsi istiqamətində ciddi addımlar atıb.

Bizim Zəfərimiz Prezidentin milli maraqlardan bir addım belə geri çəkilməmək konsepsiyasının, Azərbaycan xalqının iradəsinə güvənmək və onu həyata keçirmək məharətinin nəticəsidir. İndi Zəfərdən öncəki dövrə diqqət yetirəndə Prezident İlham Əliyevin Azərbaycan Ordusunun gücləndirilməsi istiqamətində həyata keçirdiyi siyasətin, ordunun maddi-texniki bazasının gücləndirilməsi üçün atılan addımların, bütün təzyiqlərə və basqılara baxmayaraq, bu istiqamətlərdə mühüm irəliləyişlərin əldə olunmasının, beynəlxalq müstəvidə bir çoxlarının anlama-

dığı uğurlu manevrlərin bugünkü qalib Azərbaycanın ortaya çıxmasına zəmin yaratdığını görə bilirik.

Xalqımızı Zəfər Günü münasibəti ilə təbrik edirəm. Allahdan şəhidlərimizə rəhmət, qazilərimizə şəfa diləyirəm.

**Fatma Yıldırım.** Bu gün biz tarixi bir günün – 8 Noyabr Zəfər Gününün 5-ci ildönümünü böyük qürur və iftixar hissi ilə qeyd edirik. 5 il öncə müzəffər Ali Baş Komandanımız, cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu tariximizin ən parlaq səhifəsini yazdı. 30 il işğal altında qalmış torpaqlarımız işğaldan azad edildi, ərazi bütövlüyümüz bərpa olundu.

Zəfərimizin memarı, cənab Prezident İlham Əliyevin dəmir iradəsi, uzaqgörən siyasəti, diplomatik çevikliyi bu tarixi nailiyyətin əsasını qoydu. Cənab Prezident həm döyüş meydanında, həm də beynəlxalq tribunalarda Azərbaycanın haqq səsini ucaltdı, “Qarabağ Azərbaycandır!” şüarını qalib bir xalqın manifestinə çevirdi.

Bu qələbə təkcə hərb meydanında deyil, həm də milli həmrəyliyimizdə, dövlət–xalq–ordu birliyində qazanıldı. Müharibə günlərində Azərbaycan xalqı “Dəmir yumruq” kimi birləşdi. Əsgərimizin döyüş ruhuna, xalqımızın səfərbərliyinə, şəhidlərimizin qəhrəmanlığına dünya heyran qaldı.

Bu gün azad Qarabağda, Şuşada, Laçında, Zəngilanda, Füzulidə və işğaldan azad olunmuş bütün ərazilərimizdə üçrəngli bayrağımız qürurla dalğalanır. Biz artıq bərpa və quruculuq mərhələsindəyik. Dövlətimiz azad edilmiş torpaqlarımızı cənnət diyara çevirmək üçün böyük işlər görür. Yeni şəhərlər, “ağıllı kəndlər”, hava limanları, yollar inşa olunur. Bu, Zəfərin davamı, quruculuq zəfəridir.

Eyni zamanda, bu gün biz şəhidlərimizin müqəddəs

xatirəsini böyük ehtiramla yad edirik. Onlar Azərbaycanın azadlığı, suverenliyi, gələcəyi uğrunda canlarından keçdilər. Onların ruhu qarşısında baş əyirik. Qazilərimiz, müharibə iştirakçıları bizim qürurumuz, xalqımızın qəhrəman övladlarıdır.

5 il öncə biz tarix yazdıq. Bu gün isə o tarixin üzərində müasir, güclü, qalib Azərbaycanı qururuq. Bu Zəfər tarixini bizə bəxş edən müzəffər Ali Baş Komandanımıza və ordumuza minnətdarıq. 8 Noyabr Zəfər Günü daim qalib xalqımızın ən uca bayramı kimi qeyd olunacaq.

**Jalə Əliyeva.** Bundan tam 22 il əvvəl – 2003-cü il oktyabrın 31-də xalqın etimadıyla ilk dəfə Azərbaycan Respublikasının Prezidenti seçilən İlham Əliyev andiçmə mərasimində bildirdi ki, hər bir azərbaycanlının Prezidenti olacaq, Ulu Öndər Heydər Əliyev siyasətinə sadiq qalaraq Azərbaycanın qarşısında duran bütün vəzifələri yerinə yetirəcək, taleyüklü problemimiz olan Qarabağı erməni tapdağından azad etmək üçün çalışacaq.

İlham Əliyev yalnız böyük liderlərə xas iradə və əzmkarlıqla bütün vədlərinə əməl etdi, xalqının arzularını qısa zaman içərisində həqiqətə çevirdi, hər bir azərbaycanlının Prezidenti olmaqla yanaşı, yaxşı Prezident olmağı bacardı. O, ata vəsiyyətini yerinə yetirərək böyük Zəfərin memarı kimi adını əbədiyyən tarixə yazdı.

Tam 5 il öncə, noyabrın 8-də Şuşanın alınmasıyla nəinki Şuşalı, bütövlükdə, dağlı-aranlı Qarabağlı, vahid Azərbaycan olduq. Noyabrın 10-da isə tarixi qələbəyə imza atdıq.

Prezident İlham Əliyev 2020-ci il noyabr ayının 8-də Şəhidlər Xiyabanından bütün dünyaya səslənərək "Əziz Şuşa, sən azadsan!" kəlmələriylə xalqına tarixi müjdəsini verdi. Həmin gündən – noyabrın 8-dən üzü bu yana artıq

Qarabağda başqa bir abu-hava, başqa bir rüzgar dolaşır, başqa bir şahənşahlıq, başqa bir atəşfəşanlıq var. Azad vətənimiz əvvəlkindən daha gözəl şəkildə, möhkəm təməllər üzərində yenidən qurulur. Bəli, biz böyük vətəni qururuq, yenidən cənnətə çeviririk. Xarı bülbül Vətənə dönüb, böyük qayıdış baş tutub, vətəndaşımız öz tarixi yurduna qayıdır, bölgədə həyat qaynayır!

Ard-arda əldə edilən uğurlar şanlı Zəfər tariximizə hər gün yeni qürurverici səhifələr yazır, Azərbaycanın dünya səhnəsindəki yeri və nüfuzu getdikcə daha da güclənir. Dünyanın fövqəldövlətləri də bölgənin parlayan ulduzuna çevrilərək ən yüksək zirvələri fəth etməkdə olan Azərbaycanı məhz Prezident İlham Əliyevin dəmir yumruğu və dəyişməz mövqeyi ilə yaratdığı təkzibedilməz reallıqlar bucağından görür və təqdir edir. Atılan bütün uğurlu addımlar hələ yolun başlanğıcıdır. Qarşıda bizi dünyanın əsas güclərindən birinə çevrilməyin coşqusu və sevinci gözləyir.

Xalqı qarşısındakı bütün vədlərini ləyaqətlə yerinə yetirən, Azərbaycan və dünya tarixinə silinməz imzasını atan Prezident İlham Əliyevin ilk dəfə Prezident kürsüsünə qalxdığı gündən bəri onunla birlikdə bütövlüyünə, suverenliyinə doğru inamla irəliləyən və məhz onun sayəsində arzularına qovuşan hər bir Azərbaycan vətəndaşını bu gün münasibəti ilə bir daha təbrik edir, möhtərəm Prezidentimizə xalqının və ölkəsinin bütövlüyü uğrunda çıxdığı böyük yolda bitməz tükənməz güc və enerji, yeni zəfərlər arzulayırıq.

**Könül Nurullayeva.** Azərbaycan öz tarixinin ən şərəfli dövrlərindən birini yaşayır. 2020-ci il sentyabrın 27-də başlayan və Azərbaycan xalqının tarixinə şanlı Zəfər salnaməsi kimi yazılan 44 günlük müharibənin başa

çatmasından 5 il keçir.

1988-ci ildə başlayan Qarabağ hadisələri, erməni ideoloqlarının “dənizdən-dənizə Ermənistan” adlı sərsəm ideyasını reallaşdırmaq cəhdi kəndlərin, şəhərlərin dağılması, onminlərcə günahsız insanın ölümü, yüzminlərcə azərbaycanlının öz tarixi torpaqlarından didərgin düşməsi ilə nəticələnmiş, Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarını işğal etməsi azərbaycanlıları doğma yurd-yuvalarından didərgin salmaqla yanaşı, ölkəmizin iqtisadiyyatına və mədəni irsinə də ağır zərbə vurmuş və nəticə olaraq bir milyondan çox azərbaycanlı 30 il ərzində qaçqın və məcburi köçkün həyatı sürməyə məcbur olmuşdur.

Möhtərəm Prezidentimiz İlham Əliyev Ulu Öndər irsinə əsaslanan yeni tarix yazdı. Azərbaycançılıq təfəkkürünə sadiq yeni azərbaycanlı yetişdirdi, güclü ordu və müdafiə sənayesi formalaşdı. Azərbaycanda hərbi sənaye kompleksinin yaradılması ölkənin hərbi qüdrətini artırdı. Azərbaycanda son illərdə formalaşan və dinamik inkişaf edən hərbi sənaye hesabına müxtəlif növ hərbi texnika, zirehli maşınlar, pilotsuz uçuş aparatları, atıcı silahlar istehsal olunmağa başladı. Çoxsaylı maneələrə rəğmən, Ümummilli Liderin neft strategiyasını qətiyyətlə həyata keçirməklə ölkəmizi müstəqil iqtisadi gücə çevirdi və bu qətiyyət bizi böyük Zəfərə apardı.

İkinci Qarabağ müharibəsində əldə etdiyimiz qələbə Azərbaycanın müasir tarixinin və Azərbaycan xalqının taleyinin ən əhəmiyyətli hadisəsidir. Həmçinin bu qələbənin regional və beynəlxalq əhəmiyyət daşıdığını da ayrıca vurğulamaqda fayda olduğunu bildirmək istəyirəm. Azərbaycan İkinci Qarabağ müharibəsində qələbəsi ilə yaşadığımız bölgəyə sülh, əmin-amanlıq və təhlükəsizlik münasibətləri gətirmiş oldu. 5 il bundan əvvəl münaqişə

vəziyyətində yaşayan xalqlar və ölkələr arasında, demək olar ki, yeni münasibətlər sistemi, sülh gündəliyi formalaşıbdır. Doğrudur, Ermənistan tərəfindən səsləndirilən bəyanatların bəziləri səmimilik testindən keçə bilməsə də, bütövlükdə, iki ölkə arasında və Cənubi Qafqazda hərbi ritorikanın siyasi ritorika ilə əvəz olunduğu aydın şəkildə müşahidə edilir. İndi bölgədə əmin-amanlıqdır və bölgənin insanları gələcəyinə, öz talelərinə daha optimistcəsinə baxa bilirlər. İkinci Qarabağ müharibəsində Azərbaycanın əldə etdiyi möhtəşəm qələbənin, eyni zamanda, böyük beynəlxalq əhəmiyyəti və mənası var idi.

Düşmən tapdağı altında olan torpaqlarımızı azad edəndə hər birimiz bir ömrə bərabər anlar yaşamaqla yanaşı, həm də birlikdə tariximizə, əsrlərə bərabər şanlı səhifələr də yaratdıq. Həmin səhifələr arasında 44 günlük Vətən müharibəsindəki böyük qələbəmizin davamı və qürur gətirən möhtəşəm səhifə kimi tariximizə əbədi yazılan 2023-cü il 19-20 sentyabr tarixləri xüsusi yer tutur. Həmin gün Azərbaycanın bütün əraziləri üzərində suverenlik təmin olundu. Azərbaycan əsgəri hərb tarixinin – 44 gün, üstəgəl, 23 saat 43 dəqiqə, bərabərdir Azərbaycanın suverenliyinin bərpası – formulunu yarada bildi. Azərbaycan Ordusu bu tarixi qələbəsi nəticəsində otuz ilə yaxın düşmən tapdağı altında olan tarixi torpaqlarımızı azad etməklə yanaşı, həm də iki əsrlik bir problemi həll etmiş oldu.

Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd

rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəkliyi, Zəngilanda isə Bartaz, Sığırt, Şükür-ataz yüksəkləri və daha 5 adsız yüksəklik azad olundu.

Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun möhtəşəm Zəfər əldə etdiyi 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə dövlət başçısının tapşırıqları əsasında şəhid ailələri üzvləri və müharibə iştirakçıları ilə bağlı həyata keçirilən genişmiqyaslı sosial dəstək paketinin icrası bu gün də uğurla davam etdirilir.

Ümumilikdə, postmüharibə dövründə şəhid ailələri, müharibə ilə əlaqədar əlilliyi olan şəxslər və veteranlardan ibarət 250 min şəxs 500 mindən çox xidmətlə təmin olunub.

- şəhid ailələri və müharibə iştirakçılarından ibarət 132 min şəxsə 400 min xidmət göstərilib, o cümlədən onlara 6900 mənzil və 567 avtomobil verilib;
- 106 min şəxsə 120 min aylıq sosial ödəniş təyin edilib;
- 27,8 min şəxsin məşğulluğu təmin edilib;
- 25,5 min şəxsə birdəfəlik ödəniş verilib;
- 11 şəxsə 89 min sosial-psixoloji dəstək və reabilitasiya xidməti göstərilib;
- müharibə ilə əlaqədar əlilliyi olanlara 82 min reabilitasiya vasitəsi, o cümlədən 612 ədəd yüksək texnologiyalı müasir protez verilib və sair.

2025-ci ildə şəhid ailələri üçün Prezidentin aylıq tə-qaüdü artırılaraq 600 manatdan 700 manata, müharibə ilə əlaqədar əlilliyi olan şəxslər üçün Prezidentin aylıq tə-

qaüdü artırılaraq I dərəcə üzrə 500 manatdan 600 manata, II dərəcə üzrə 400 manatdan 500 manata, III dərəcə üzrə 330 manatdan 400 manata, əlilliyə görə müavinətlər müvafiq olaraq, 270 manatdan 300 manata, 220 manatdan 250 manata, 150 manatdan 180 manata çatdırılıb.

Həmin möhtəşəm gündən sonra qalib Azərbaycanımız yeni tarixi eraya qədəm qoydu. Azərbaycan xalqı Ali Baş Komandan ətrafında yumruq kimi birləşib iki əsrlik problemi həll etməklə möhtəşəm bir qələbə çaldı. Bu qələbəyə Azərbaycan əsgəri öz möhtəşəm fəaliyyəti ilə həm öz adını, həm də xalqımızı qalib xalq kimi çox yüksək səviyyədə tarixə yazdı.

Qələbə günü münasibəti ilə hər birimizi təbrik edirəm.

**Malik Həsənov.** Bu gün xalqımız 8 Noyabr − Zəfər Günü, qələbənin sevincini yaşayır. Bu Zəfər Azərbaycan tarixinin ən əhəmiyyətli hadisələrindən biridir, xalqımızın fəxr duyduğu bir tarixdir. 5 ildir, bayramlarımız sırasına daha bir möhtəşəm tarixi gün əlavə olunub. Dövlət başçısı İlham Əliyevin sərəncamı ilə Qarabağın tacı Şuşamızın işğaldan azad edildiyi tarix – 8 Noyabr ölkəmizdə Zəfər Günü kimi təsis edildi. Xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbənin əbədiləşdirilməsi məqsədi ilə imzalanan sərəncam ölkə ictimaiyyəti tərəfindən böyük rəğbətlə qarşılandı. Dövlətimizin qətiyyəti, Azərbaycan xalqının əzmi, iradəsi, iqtisadi qüdrəti, müasir ordu quruculuğu və Prezident–xalq birliyi İkinci Qarabağ müharibəsində qələbəmizi təmin edən mühüm amillər oldu. Dünyaya səs salan Zəfərimiz xalqımızın yenilməzliyinin, məğrurluğunun dünyaya təqdimatıdır. Bir daha sübut olundu ki, tarixi ədalətə, real faktlara əsaslanan

siyasət qalib olur. Ermənilər illərdir, himayədarlarının dəstəyi ilə tarixi saxtalaşdırmağa çalışsalar da, sonda yenə də sözünü deyən tarixi faktlar oldu. Zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi Zəfər çaldı. Ərazi bütövlüyümüzün bərpa olunması müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Ulu Öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin prioriteti oldu.

Ötən illər ərzində atılmış hər bir addım və qəbul olunmuş hər bir qərar doğma Azərbaycan torpaqlarının işğaldan azad olunmasına xidmət edib. Uzun illər Azərbaycan danışıqlar masasında prinsipiallıq göstərərək, eyni zamanda, güclü ordu yaradırdı. Ölkəmizin iqtisadi və maliyyə imkanlarının artması bütün sahələrdə, o cümlədən ordu quruculuğunda davamlı addımların atılmasını şərtləndirdi. Dövlət büdcəsindən ayırmalarda müdafiə xərcləri birinci yerdə dayanır. Ordunun döyüş qabiliyyəti möhkəmləndi, müasir silah-sursat, texnika ilə təchiz edildi. Dövlət başçısı İlham Əliyev daim bu çağırışı edir ki, gənclərimiz milli vətənpərvərlik ruhunda tərbiyə olunmalıdırlar. Tarixi Zəfərimiz xalqımızın torpaq, Vətən sevgisinin nümayişi oldu.

İqtisadi amil ölkənin qüdrətini artırdı və qələbəni reallığa çevirdi. Ermənistan heç bir sahədə Azərbaycanla rəqabət aparmaq imkanında deyil. İşğalçılıq siyasəti ucbatından bütün regional layihələrdən təcrid olunmuş Ermənistandan fərqli olaraq Azərbaycan iştirakçısı və təşəbbüsçüsü olduğu layihələrlə regionda tamamilə yeni mənzərə yaratdı. Regional inkişafın aparıcı qüvvəsinə

çevrilən Azərbaycan dünyanın enerji təhlükəsizliyinin təminatçısıdır. Azərbaycan regionun enerji, nəqliyyat xəritəsini yenidən tərtib etdi. Ölkəmizin beynəlxalq mövqeyi möhkəmləndi. Bu gün tarixə qovuşan Qarabağ münaqişəsinin həlli üçün möhkəm hüquqi baza yaradıldı ki, 44 günlük İkinci Qarabağ müharibəsində döyüş meydanında üstünlüyümüzü təmin edən mühüm amillərdən biri də məhz bu oldu.

Azərbaycan xalqı hər zaman müzəffər Ali Baş Komandan İlham Əliyevdən "İrəli!" əmrini gözləyirdi: "Ermənistan silahlı qüvvələrinin 2020-ci il 27 sentyabr tarixində ərazilərimizi müxtəlif istiqamətlərdən raket atəşinə tutmaları dövlətimizin və xalqımızın səbir kasasını doldurdu. Azərbaycan Ordusunun komandanlığı tərəfindən qoşunlarımızın bütün cəbhə boyu əks-hücum əməliyyatına başlaması barədə qərar verildi. 44 günlük İkinci Qarabağ müharibəsi dövründə xalq öz dəmir yumruğunu, birliyini və gücünü nümayiş etdirdi. On minlərcə insanın orduya könüllü kimi yazılması, Azərbaycanda xalq–ordu birliyinin və orduya olan inamın təqdimatı oldu".

Böyük qürur hissi ilə qeyd etmək olar ki, tarixi Zəfərimiz bugünkü reallıqlarımızın və gələcəyimizin əsasıdır. Adını tarixə qalib sərkərdə kimi qızıl hərflərlə yazan dövlət başçısı İlham Əliyevin Zəfərimizdən dərhal sonra işğaldan azad edilmiş torpaqlarımıza səfəri tarixi hadisə kimi dəyərləndirilərək Böyük Qayıdışın reallığa çevrilməsi istiqamətində mühüm addım oldu. Azərbaycan dünyaya dirçəliş modelini təqdim edir. Bütün işğaldan azad edilmiş torpaqlar quruculuq meydanına çevrilib. Azərbaycan xalqı tamamilə dağıdılmış ərazidə yeni həyat qurur. Azad edilmiş ərazilərə səfərləri ilə Prezident İlham

Əliyev öz sevincini xalqı ilə bölüşməklə yanaşı, həmin əraziləri tez bir zamanda dirçəltmək əzmində olduğunu əyani nümayiş etdirir.

Böyük Qayıdış strategiyası yeni infrastrukturun yaradılması ilə yanaşı, işğaldan azad olunmuş əraziləri regionun yeni inkişaf modelinə çevirməkdən ibarətdir. Hava qapılarını dünyaya açan Qarabağ və Şərqi Zəngəzur cənnət məkana çevrilir. Dövlət başçısı İlham Əliyevin Sərəncamı ilə təsdiqlənən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" Qarabağlı və Şərqi Zəngəzurlu Azərbaycanın gələcək inkişafının yol xəritəsidir.

Cənab Prezidentin söylədiyi kimi, bu şanlı tarix bizimlə əbədi olacaq. Azərbaycan xalqı, gələcək nəsillər bu şanlı Qələbə ilə haqlı olaraq fəxr edəcəklər! Biz sülh istəyirik, biz müharibə istəmirik. Sülh, amma ədalətli sülh. İrəli sürdüyümüz şərtlər ədalətlidir, beynəlxalq hüquqa əsaslanır və sülh müqaviləsi bu şərtlər əsasında imzalanmalıdır.

**Sahib Alıyev.** Biz Zəfərimizin 5-ci ildönmünü o, dərhal əldə ediləndən və 1-ci, 2-ci, 3-cü, hətta 4-cü ildönümün-dəkindən də həm fərqli bir hisslə, həm də fərqli reallıqda qeyd edirik. Bəli, 2020-ci ildə ordusu darmadağın edilən Ermənistanın təslim olmasıyla bizim regionda geosiyasi dəyişiklik baş verdi. Amma qanunverici orqanın təmsilçiləri olaraq gözəl bilirik ki, geosiyasi dəyişiklik hələ mövcud geosiyasi reallığın əhəmiyyətli dərəcədə, yaxud da tam aradan qaldırılması demək deyil. Məhz bunun baş verməməsi üçün Rusiyanın hərbi kontingenti Qarabağa yeridilmişdi. Ona görə də İkinci Qarabağ savaşında qazanılan Zəfərlə baş verən geosiyasi dəyişikliyə, belə demək mümkünsə, onun sistemli xarakter

almasını təmin edən ardıcıl düzəlişlərə ehtiyac vardı ki, 2021-ci, 2022-ci, 2023-cü illərdə keçirilən lokal əməliyyatlar bundan irəli gəlirdi. Həmin əməliyyatlara isə Rusiyanın yanaşması necə idisə, Qərbinki də o cür idi. Qərbdəkilər öz narazılıqlarını hətta daha yüksək səslə bildirirdilər. Nə qədər təəccüblü olsa da, Rusiya hərbi kontingenti Qarabağı tərk edəndə də Yelisey Sarayının, eləcə də Bayden-Blinken cütlüyünün reaksiyası göstərdi ki, onlar buna nəinki sevinirlər, əksinə, qarşı çıxırlar. Həm də bilə-bilə ki, bu, Ukrayna cəbhəsində üz-üzə dayandıqları, az qala, düşmən gözündə gördükləri bir ölkənin bizim regiondakı mövqelərinə heç də təsirsiz ötüşməyəcək. Bunun bir çox səbəbi vardı. Onlardan biri bu idi ki, qərbdəki bəlli çevrələr bizim regiondakı proseslərə 21-ci əsrdə də 1878-ci il Berlin Konqresinin direktivləri prizmasından yanaşırdılar. Amma ən əsas səbəb böyük güclərdən heç birinin bu regiondakı dövlətlərin və təbii ki, bütövlükdə, regionun beynəlxalq subyektliyini istəməmələri ilə bağlıydı.

Məhz ona görə burada konfliktin həllindənsə onun idarə olunmasına çalışırdılar. Beləliklə, atılan ardıcıl addımlarla, özəlliklə də iyunun 12-də Rusiyanın Qarabağdakı hərbi kontingentinin axırıncı eşalonunu da yola salmaqla son 5 ildə burada baş verənləri öz maraqlarına zərbə kimi qiymətləndirənlərin hamısını fakt qarşısında qoyduq. Bu faktın adı dəyişiklik edilən deyil, tam dəyişdirilən geosiyasi reallıq idi ki, avqustun 8-də Vaşinqtonda dünyanın bir nömrəli ofisində Prezident Trampın şahidliyi ilə təsdiqləndi.

Ermənistandakı revanşistlər az öncə xatırlatdığım olaylara dayanaraq deyirlər ki, eyni savaşı Nikol Paşinyan azı üç dəfə uduzub. Ya da bildirirlər ki, o, indiyədək bir

neçə dəfə təslimçilik aktı imzalayıb. Amma bir şeyi unudurlar, 2020-ci il noyabrın 10-da təslimçilik aktı imzalayanda da, 2022-ci il oktyabrın 7-də Praqada "Qarabağ Azərbaycandır!" deyəndə də, bu il avqustun 8-də Vaşinqtonda sülh anlaşması paraflananda da Paşinyan tək deyildi. O, Ermənistanın havadar gözündə gördüyü dövlətlərlə birinci halda məsləhətləşib bunu edirdi, ikinci və üçüncü halda isə həmin dövlətlərin başçıları da yanında idilər. Bəs belə bir vəziyyət öz-özünəmi yarandı? Əlbəttə, xeyr, onu yaradan var.

"Böyük Ermənistan" xülyasından çox da fərqlənməyən "Dövlət Şurası" planı quran zavallı hakimiyyət hərisi və özü kimi satqın yandaşları da bilməmiş deyillər ki, bunu edən kəsilib atılan dırnağı belə olmadıqları müzəffər Ali Baş Komandan cənab İlham Əliyevdir. Azərbaycan lideri bu son 5 ildə gecəsini gündüzünə qataraq qrossmeyster dəqiqliyi ilə yeritdiyi siyasətlə təkcə İkinci Qarabağ savaşındakı qələbəmizi ona qarşı çıxan böyük güclərə həzm etdirmədi, regiona sülh gətirdi və Ermənistana da normal, öz milli maraqlarını üstün tutmağı bacaran bir dövlətə çevrilməsi üçün şans yaratdı. Ona görə yox ki, Azərbaycana qarşı etdikləri unudulub, yaxud da unudulacaq. Xeyr, ona görə ki, Ermənistanın böyük güclərin əlində geosiyasi alət olması o ölkəyə şərəf gətirmədiyi kimi, biz qonşularına da əl vermir. Niyə əl vermədiyini isə 30 illik təcrübəmizdən bilirik.

Ola da bilsin ki, xəstə zehniyyət üstün gəlsin və qonşu ölkə ona verilən tarixi fürsətdən faydalanmasın. Ancaq orada anlamalıdırlar, indi tarixin elə bir mərhələsindəyik ki, Ermənistan ya qonşularıyla düşmənçiliyə son qoyan normal dövlət olacaq, ya da olmayacaq. Birinci variantın baş tutması üçün biz qonşu ölkəyə dəstək göstərməyə

hazırıq və göstəririk də. İkinci variantda da tam hazırıq.

**Səbinə Salmanova.** Bu gün Azərbaycanın qürur tarixini, 8 Noyabr – Zəfər Gününü, yəni Vətən müharibəsində qazandığımız böyük qələbənin beşinci ildönümünü qeyd edirik. Bu, təkcə bir tarixi hadisənin ildönümü deyil, onillərlə davam edən ədalətsizliyin, zülmün və həsrətin bitdiyi gündür. Düz 5 il əvvəl, 2020-ci il sentyabrın 27-də başlayan Vətən müharibəsində Azərbaycan Ordusu müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə milli iradənin, beynəlxalq hüququn və tarixi ədalətin səsini birləşdirərək torpaqlarımızı işğaldan azad etdi. Bu Zəfər həm də Birləşmiş Millətlər Təşkilatının 1993-cü ildən qüvvədə olan, lakin icra edilməyən dörd qətnaməsinin hüquqi əsasda həyata keçməsi idi. Başqa sözlə, Azərbaycan öz suverenliyini beynəlxalq hüquq çərçivəsində bərpa etdi. Hansı ki, bu, hər bir dövlətin ən ali qanuni haqqıdır. Yəni biz zorla deyil, haqla qalib gəldik.

Qələbə bir xalqın öz tarixini yazması, taleyini müəyyən etməsidir. 44 günlük şanlı müharibə bizə göstərdi ki, azadlıq kağız üzərində deyil, xalqın ruhunda yaşamalıdır. Odur ki, bu gün Qarabağ üzərində dalğalanan üçrəngli bayrağımız təkcə torpağın deyil, milli ləyaqətin, birliyin və əzmin təntənəsidir.

Biz tarixi Zəfərimizə təkcə hərbi və siyasi kontekstdə baxmamalıyıq, bu, eyni zamanda, konstitusion və humanitar ədalətin bərpa olunmasıdır. Hazırda Azərbaycan dövləti də beynəlxalq hüquq normalarına əsaslanaraq vaxtı ilə o torpaqlardan, öz yurdlarından zorla çıxarılan, qaçqın və məcburi köçkün həyatına məhkum edilən insanların ləyaqətli geri dönüşünü mərhələli şəkildə təmin edir.

8 Noyabr – Zəfər Günü, hüquqi terminlərlə desək, dövlətin ərazi bütövlüyü prinsipinin de-fakto və de-

yure bərpası günüdür. Çünki beynəlxalq hüquqda ərazi bütövlüyü mütləq prinsip sayılır və bu prinsipin qorunması dövlətin varlığının əsas şərtidir. Azərbaycan bu prinsipi məhz öz ordusunun gücü, xalqının iradəsi və beynəlxalq qanuni tələblər çərçivəsində həyata keçirdi. Odur ki, bu Zəfərlə Azərbaycan hüquq tarixində nadir bir nümunə yaratdı:

– ədalətsiz vəziyyəti sülh və qanun prinsiplərinə əsaslanaraq dəyişdirdi;

– suverenlik hüququnu hüquqi legitimliklə təsdiqlədi;

– beynəlxalq münasibətlər sistemində müasir hüquq dövlətinin mövqeyini möhkəmləndirdi.

Sonda bir məqamı da xüsusi qeyd etmək istəyirəm. Zəfər bizə yalnız qürur deyil, məsuliyyət də verir. Qarabağ və Şərqi Zəngəzur indi, sadəcə, bir bölgə deyil, yenidən qurulan, dirçələn, gələcəyə fokuslanan Azərbaycanın simvoludur. Orada salınan və salınacaq yeni şəhərlər, məktəblər, mədəniyyət mərkəzləri, yollar və hava limanları milli dirçəlişin hüquqi, iqtisadi, sosial və mənəvi təcəssümüdür.

Sirr deyil ki, bu qələbə bir xalq olaraq bizi daha da birləşdirdi. Artıq hər bir azərbaycanlı bilir ki, vətən, onun suverenliyi, hər bir qarış torpağı milli birliklə, milli iradə ilə qorunur. 8 Noyabr – Zəfər Gününün kökündə də məhz bir millətin əzmi dayanır. Bu tarxi gün həm də Azərbaycan dövlətinin hüquqi haqlılığını sübut etdiyi gündür. Qoy, bu Zəfərin işığı nəsillər boyu sönməsin, bu qürur hər bir azərbaycanlının qəlbində əbədi yaşasın! Eşq olsun müzəffər Ali Baş Komandana! Yaşasın Azərbaycan Ordusu!

**Şahin İsmayılov**. Bu gün burada tarixi bir paralelin şahidi oluruq: 2003-cü il oktyabrın 31-də İlham Əliyev ilk

dəfə Azərbaycan Respublikasının Prezidenti seçildi. Bu gün – 2025-ci il noyabrın 8-ə doğru irəlilədiyimiz bu tarixi anda biz Zəfər Gününün 5 illiyini qeyd edirik. Bu iki tarix – 31 oktyabr və 8 noyabr təkcə təqvimdəki günlər deyil, bunlar bir xalqın iradəsinin, liderlik ruhunun və milli qüdrətin zamanla necə bir möhtəşəm zəfərə çevrildiyinin simvollarıdır.

2003-cü ildə Azərbaycan xalqı böyük bir inamla İlham Əliyevi öz lideri seçdi. O gün verilən səs, əslində, gələcəyə verilən ümid, sabaha olan inam idi. O gündən bəri bu inam bir çox sınaqlardan keçdi, amma heç zaman sarsılmadı. Çünki bu inamın arxasında güclü liderlik, uzaqgörən siyasət və xalqına sonsuz bağlılıq dayanırdı.

Bu gün biz artıq Zəfər xalqıyıq! Məhz İlham Əliyevin 17 illik strateji iradəsi, hərbi-siyasi uzaqgörənliyi, ordu quruculuğu və diplomatik zəhməti sayəsində 2020-ci il noyabrın 8-də Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi. Bu, təkcə torpaqların deyil, xalqımızın şərəfinin, qürurunun və ləyaqətinin bərpası idi.

Zəfər Günü, sadəcə, qələbə deyil. Bu gün həm də 2003-cü ildən başlayan yolun məntiqi və möhtəşəm zirvəsidir. Bu gün İlham Əliyevin prezidentlik fəaliyyətinin zirvə nöqtəsidir. Bu gün bu Zəfərin 5-ci ildönümünü qeyd edərkən biz bir daha anlayırıq: 2003-cü ildə edilən seçim necə müdrikdir, necə tarixidir və necə müstəsnadır.

Zəfər həm də gələcəyə verilmiş anddır. Biz şəhidlərimizin ruhu qarşısında borcluyuq ki, bu torpaqlarda əbədi sülhü, inkişafı və rifahı bərqərar edək. Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunan ərazilərdə həyat yenidən doğulur – yollar çəkilir, məktəblər, xəstəxanalar, mədəniyyət ocaqları tikilir. Bu, sadəcə, quruculuq deyil, bu, ədalətin bərpasıdır. Bu, Yeni

Azərbaycanın inşasıdır.

Bu gün biz əminliklə deyirik: Azərbaycan heç zaman bu qədər güclü, bu qədər bir yumruq kimi birləşmiş, bu qədər Zəfər ruhlu olmamışdı. Bu Zəfərin kökü 2003-cü ildə qoyuldu. Bu Zəfərin adı İlham Əliyevdir! Qoy, bu yol daim davam etsin. Qoy, bu qürur, bu ləyaqət hissi heç zaman sönməsin. Qoy, hər bir azərbaycanlı bu tarixlə fəxr etsin! Yaşasın Zəfər! Yaşasın Prezident İlham Əliyev! Yaşasın Azərbaycan!

**Şahin Seyidzadə.** Milli Məclisdə Azərbaycanda "Konstitusiya və Suverenlik İli" çərçivəsində Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30 illiyinə həsr olunmuş "Konstitusiya müasir dünyada dövlətlərin müstəqilliyinin və suverenliyinin təməli kimi" mövzusunda keçirilən beynəlxalq parlament konfransı müstəqil dövlətimizin ilk Konstitusiyasının qəbulunun 30 illiyinə xüsusi siyasi və tarixi məna verir. Bu əlamətdar tədbir həm də Azərbaycanın dövlətçilik tarixində hüquqi dövlət və vətəndaş cəmiyyətinin qurulması istiqamətində atılmış ən mühüm addımlardan birinin növbəti təntənəsi kimi dəyərləndirilir. Konfransda səslənən fikirlər bir daha sübut etdi ki, Azərbaycan Respublikasının Konstitusiyası xalqımızın azad iradəsinin, dövlətimizin müstəqilliyinin və suverenliyinin rəmzidir.

Beynəlxalq Parlament Konfransında iştirak etmək məqsədi ilə 20-dək ölkənin parlament nümayəndə heyətlərinin, eləcə də 5 beynəlxalq təşkilatın təmsilçilərinin iştirakı Azərbaycanın beynəlxalq parlament diplomatiyasında artan nüfuzundan, ölkəmizin regional və qlobal səviyyədə etibarlı tərəfdaş kimi qəbul edilməsindən xəbər verir. Bu tədbir həm də Azərbaycanın demokratik dəyərlərə, qanunun aliliyinə və beynəlxalq əməkdaşlığa sa-

diqliyinin bariz nümunəsidir.

Hörmətli xanım sədr, ölkəmizdə səfərdə olan nümayəndə heyətləri ilə keçirilən görüşlər, xüsusi ilə Kamboca Krallığı Milli Assambleyası sədrinin müavini cənab Sot Vonq ilə görüşünüz Azərbaycan və Kamboca parlamentləri arasında əlaqələrin yüksək səviyyədə olduğunu bir daha təsdiq etdi. Sizin həmin görüş zamanı parlamentlərarası əlaqələrin daha da genişləndirilməsi, dostluq və əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsi barədə vurğuladığınız fikirlər bu istiqamətdə yeni perspektivlərin açılmasına xidmət edir.

Azərbaycan–Kamboca parlamentlərarası dostluq qrupunun rəhbəri olaraq qeyd etmək istərdim ki, bu cür qarşılıqlı dialoqlar və fikir mübadilələri iki ölkə arasında həm siyasi, həm də humanitar sahədə əməkdaşlığın dərinləşməsi üçün möhkəm əsas yaradır. Bu münasibətlərin inkişafında, parlament diplomatiyasının səmərəli şəkildə həyata keçirilməsində Sizin rəhbərliyiniz və dəstəyiniz mühüm rol oynayır.

Hörmətli xanım sədr, parlamentlərarası əməkdaşlığın genişlənməsi, dostluq əlaqələrinin möhkəmləndirilməsi və Azərbaycanın beynəlxalq arenadakı nüfuzunun artırılması istiqamətində gördüyünüz işlər yüksək qiymətə layiqdir. Sizin rəhbərliyinizlə Milli Məclisin beynəlxalq əlaqələrinin genişlənməsi, müxtəlif ölkələrin parlamentləri ilə əməkdaşlıq formatlarının təşkili ölkəmizin diplomatik uğurlarına mühüm töhfə verir.

Bu dəyərli fəaliyyətinizə görə, Sizə dərin minnətdarlığımı bildirir, gələcək fəaliyyətinizdə uğurlar, möhkəm cansağlığı və yeni nailiyyətlər arzulayıram.

**Vüqar Rəhimzadə.** Tarixi Zəfərimizin beşinci ildönümünü qürurla qeyd edirik. 44 günlük İkinci Qarabağ mü-

haribəsinin hər günü tarixə Zəfər günü kimi yazıldı. Vətən müharibəsinin başlandığı ilk gündən qələbələrə imza atılması, Qaraxanbəyli, Nüzgar, Yuxarı Əbdürrəhmanlı, Böyük Mərcanlı, Kənd Horadiz və Qərvənd kəndlərinin, Ağdərə rayonunda və Murovdağ silsiləsində mühüm strateji yüksəkliklərin azad edilməsi tarixi Zəfərimizin ilk müjdəsi oldu. Oktyabrın 4-də Cəbrayıl şəhərinin işğaldan azad edilməsi qəhrəman Azərbaycan Ordusunu növbəti qələbələrə ruhlandırdı. Rəşadətli Azərbaycan Silahlı Qüvvələri müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə hər gün irəli getdi. Zəfərdən zəfərə atılan addımlar noyabrın 8-də Azərbaycanın döyünən ürəyi Şuşanın işğaldan azad edilməsi ilə başa çatdı. Şuşanın azad olunması Ermənistan silahlı qüvvələrini diz çökdürdü, kapitulyasiya aktına imza atmasını şərtləndirdi. Dövlətimizin başçısı, müzəffər Ali Baş Komandan İlham Əliyev noyabrın 8-də Şuşanın işğaldan azad edilməsi müjdəsini xalqa çatdırarkən böyük qürur hissi ilə bəyan etdi: "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!" Ölkə Prezidenti müraciətini bu çağırışla bitirdi: "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!".

Xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən bu möhtəşəm qələbə Prezident İlham Əliyevin sərəncamı ilə əbədiləşdirildi. Şuşa şəhərinin işğaldan azad edilməsinin əhəmiyyəti nəzərə alınaraq no-

yabrın 8-i  Zəfər Günü kimi təsis edildi. 2021-ci il  yanvarın 14-də isə dövlətimizin başçısı, müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşa şəhərində üçrəngli bayrağımızı ucaltdı.

8 Noyabr – Zəfər Günü hər bir azərbaycanlı üçün iftixar mənbəyi, mədəniyyətimizin və tariximizin rəmzi olan Şuşa şəhərinin işğaldan azad edildiyi tarixi gündür. Vətən müharibəsini qələbə ilə sonlandıran, bizlərə yüksək fəxarət, hədsiz fərəh və qürur hissləri yaşadan Zəfər günüdür.

Qələbələrimizi təmin edən əsas amil Prezident–xalq–ordu birliyi oldu. Dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar həmrəylik nümayiş etdirdilər. Müharibə dövründə Prezident İlham Əliyev diplomatik cəbhədə də böyük uğurlara imza atdı. İnformasiya mübarizəsində qələbəmizdə dövlətimizin başçısı İlham Əliyevin 44 günlük Vətən müharibəsi zamanı xarici mətbuata verdiyi 30-dan artıq müsahibə əhəmiyyətli rol oynadı. Bu müsahibələrin hər biri Azərbaycan reallıqlarının beynəlxalq səviyyədə təbliğində zəngin mənbə rolunu oynayır.

Döyüş meydanında göstərilən qəhrəmanlıq, şücaət, əzmkarlıq, liderlik iradəsi bu gün azad torpaqlarımızda aparılan bərpa-quruculuq işləri ilə davam etdirilir. Dövlət başçısının rəhbərliyi ilə azad olunmuş ərazilərimiz sürətlə yenidən qurulur, dirçəldilir, bu torpaqlara həyat gətirilir. Keçmiş məcburi köçkünlər abadlaşan doğma yurdlarına qayıdırlar.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu Qarabağda və Şərqi Zəngəzurda aparılan bərpa-quruculuq işlərində yaxından iştirak edir. Vaqifin Şuşadakı məqbərəsinin bərpası, “Xarıbülbül” festivalı,

“Vaqif Poeziya Günləri”, mədəni irsin bərpası artıq bu torpaqlarda insanlar üçün layiqli həyata, yeni bir başlanğıca doğru işıqlı yol deməkdir.

Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyev bu il oktyabrın 28-də Cəbrayıl rayonunun Horovlu kəndində sakinlərlə görüşündə bildirdi ki, 8 Noyabr – Zəfər Günü bizim tariximizdə olan ən parlaq səhifədir. 5 il bundan əvvəl tarixi Zəfərimiz bütün dünyaya səs salıb.

Bu gün şəhidlərimizin ruhu şaddır. Azərbaycan bayrağı işğaldan azad edilmiş bütün torpaqlarımızda əzəmətlə dalğalanır, Qarabağımız, Şərqi Zəngəzurumuz gündən-günə cənnətə çevrilir. Azərbaycan xalqının qəhrəmanlıq salnaməsi olan bu şanlı tarix hər zaman bizim qürur mənbəyimiz olacaq.

# MÜNDƏRİCAT

31 oktyabr 2025-ci il............................................................ 3
Edilməmiş çıxışların mətnləri.............................................. 77

Yeddinci çağırış

# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİ İCLASLARININ

# PROTOKOLLARI
# VƏ
# STENOQRAMLARI

Beşinci sessiya
Payız

## 46-cı cild

31 oktyabr 2025-ci il

Buraxılışına məsul
***Hafiz Babayev***

---

Azərbaycan Respublikasi Milli Məclisinin mətbəəsi.
Bakı, Azad Mirzəyev küçəsi, 235.
Format 60x84 1/16. Çap vərəqi  6, 5. Sifariş 42. Tiraj 150.